

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib



4


SƏS

№ 214 (7139)

22 noyabr 2024-cü il.
Qiymәti 60 qәpik


# Zəfərimizin Kəlbəcər səhifəsi!



2

Prezident İlham Əliyev: "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə"

# Gürcüstanda ikihakimiyyətlilik?

## Hakimiyyətin əleyhdarları alternativ parlament yaratmaq qərarına gəliblər



14

## Pensiyalar nə qədər artacaq?



13

## Erməni terroru kilsədən təlimat alır



5

## Siyavuş Novruz: "YAP-ın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi"



6

## "Qonaqpərvərliyiniz insanı evindəymiş kimi hiss etdirir" - Xarici qonaq



13

## Yox, vermə, almayacam...



7

# Zəfərimizin Kəlbəcər səhifəsi!

## Prezident İlham Əliyev: "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə"



30 ilə yaxın bir zamanda işğalda olan torpaqlarımız dörd ildir ki, azad nəfəs alır. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Dəmir yumruğun gücünə imzalanan bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Üçtərəfli bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər işğaldan azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlerini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır".

1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcər 27 illik işğal altında qalsa da yenidən öz sakinlərini qoynuna alır. Dövlət başçısının vurğuladığı kimi, "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə". Bəli, o Kəlbəcərə ki, 1993-cü aprelin 2-də erməni quldurları tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində Kəlbəcərdə 511 nəfər şəhid olmuş, 231 nəfər itkin düşmüş, 100-lərlə adam şikəst olmuşdur. 130 yaşayış məntəqəsi, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olunmuşdur.

### DÜNYADA ANALOQU OLMAYAN KƏLBƏCƏRİN "İSTİSU"YU

Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da 27 il işğalda qalmışdı. Kəlbəcərin məşhur olan "İstisu" sanatoriyası da işğal altında idi. İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. Belə bir məkanın əvvəlki şöhrəti özünə qaytarılır. "İstisu" mineral su zavodu uzun illər Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal suyunu 30 illik müddətdən sonra yenidən istehlakçılara təqdim edir. Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" mineral su zavodunda işlər 2024-cü ildə tam başa çatdırılıb. "İstisu" mineral su zavodu müasir avtomatlaşdırılmış sudoldurma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilib. Ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksək-keyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub. "İstisu" zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır. Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir. Beynəlxalq təsnifat meyarlarına görə, Kəlbəcər rayonunda yerləşən təbii mineral su "İstisu" - natrium bikarbonat və sulfatla zəngin mineral su kimi təsnif edilir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlər orqanizmə müsbət təsir göstərir.

"İstisu" təbii mineral suyu, eyni zamanda, yerli və beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verir. "İstisu" mineral su zavodu ətraf mühitin qorunmasına da töhfə verir. Mineral su istehsalında əsas səylər uzunmüddətli uğur və rifahın əsasını təşkil edən resurslardan davamlı istifadəyə, ekoloji cəhətdən təmiz istehsal prosesinə və təbiətin mühafizəsinə yönəlib.

### ERMƏNİLƏRİN DƏYİŞMƏYƏN SİMASI

Ermənilər Azərbaycan işğal altında olan bütün əraziləri kimi, Kəlbəcəri də dağıtmış, onun tarixi abidələrini darmadağın etmişdir. Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Dağıdılmış mədəni abidələr Alban məbədi, Alban kilsəsi, Lök qalası, Uluxan qalası, Alban kilsəsi, Qalaboynu qalası, Comərd qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və digər abidələr 27 illik işğaldan azad oldu. Erməni vandalları buranı işğal etdikdən sonra tarixi abidələrin əksəriyyətini məhv ediblər. Dövlət başçısının vurğuladığı kimi, "Şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-gedə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

### FAYDALI QAZINTILARLA ZƏNGİN DİYAR

Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 ildir ki, Ermənistan respublikası tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Bir faktı da diqqətə çəkək ki, 1997-ci ildə Ermənistan Sənaye və Ticarət Nazirliyi Söyüdlü (Zod) yatağının istismari üçün Kanadanın "First Dynasty Mines" (FDM) şirkəti ilə müqavilə imzalamışdır. Yalnız 2003-2004-cü illərdə burada 4,5 ton təmiz qızıl istehsal edilib. Cənab Prezident "Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər" deyərək, bu işlərdə bəzi xarici şirkətlərin onlara yardım etdiyini də bildirib: "Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər. Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərinidəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi."

### KƏLBƏCƏR BAŞ PLANA ƏSASƏN QURULUR

Bu gün işğaldan azad olunan ərazilərimiz kimi, Kəlbəcərdə də quruculuq-abadlıq işlərinə start verilib. Artıq işğaldan azad edilən rayonda irimiqyaslı layihələr həyata keçirilir. Əlbəttə ki, həyata keçirilən layihələr, görülən işlər işğaldan azad olunan ərazilərimizdə tezliklə yeni həyatın canlanmasından xəbər verir. Bu ərazilər müasir standartlara uyğun olaraq qurulacaq, 30 illik həsrətdən sonra öz ədə-baba yurdlarından uzaq düşmüş insanlar müasir məkanlarda həyat sürəcəklər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 may 2024-cü il tarixli, 235 nömrəli Qərarına əsasən, "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" təsdiq edilib. Otuzillik erməni işğalı nəticəsində dağıdılan Kəlbəcər şəhərinin Baş Plan konsepsiyası işğal dövründən əvvəlki vəziyyəti və ərazinin relyefi, tarix-memarlıq ənənələri nəzərə alınmaqla tərtib edilib. Baş Plana əsasən, Kəlbəcər şəhəri mövcud məskunlaşma ərazisini və yaxınlığındakı Boyaqlı kəndini əhatə edəcək. Şəhərin şimal-şərq istiqamətindəki əsas girişindən başlayaraq cənub-qərb istiqamətində uzanan baş küçəsi planlaşdırma strukturunun əsasını təşkil edir. Küçənin başlanğıc nöqtəsində şəhərin sənaye və istehsalat zonası, orta hissəsində şəhər mərkəzi, bitiş nöqtəsində isə turizm və sosial xidmət obyektləri nəzərdə tutulub. Qeyd edək ki, şəhərin işğala qədərki (1969-cu ildə tərtib edilən) son Baş Planında ərazisi 130 ha, əhalisinin sayı isə 7500 nəfər təşkil etdiyi halda, 2040-cı ilədək inkişaf konsepsiyasına uyğun olaraq bu rəqəmlər iki dəfədən çox artacaq (290 hektara yaxın ərazi, 17000 nəfər əhali). Şəhərin mərkəzi ortamərtəbəli çoxmənzilli və inzibati binalardan ibarət olacaq. Ətrafda isə fərdi yaşayış evlərinin tikintisi aparılacaq.

Şəhərin ümumi yaşayış fondu 488 min $m^2$ təşkil edəcək ki, bunun da böyük hissəsi (421 min $m^2$) fərdi yaşayış evlərinin, 46 min $m^2$-i isə ortamərtəbəli yaşayış binalarının payına düşəcək. Ümumən 2040-cı ilədək əhalinin 4250 mənzillə (adambaşına 25 $m^2$) təmin olunması nəzərdə tutulub. Şəhərdə həmçinin 4 məktəb (960 şagird yerlik), 4 uşaq bağçası (520 yerlik), 2 xəstəxana (160 çarpayılıq), 1 reabilitasiya mərkəzi (150 çarpayılıq), İşğal və Zəfər muzeyləri, mehmanxanalar, müxtəlif ictimai-iaşə obyektləri və idman meydançalarının tikintisi planlaşdırılır.

Plana əsasən, şəhər ərazisinin 22%-i yaşıllıqlardan ibarət olacaq, yəni 60 ha sahədə fərqli yaş və sosial qruplar üçün yaşıllıq zolaqları yaradılacaq. Beləliklə, ölkənin digər şəhərlərində ümumi istifadədə olan yaşıllıq sahəsinin adambaşına düşən norması 7-10 $m^2$ nəzərdə tutulduğu halda, Kəlbəcər şəhərində bu göstərici 33 $m^2$ təşkil edəcək.

Baş Plana uyğun olaraq, şəhərin yol infrastrukturu da müasir standartlar tətbiq edilməklə qurulacaq. Əhali uzunluğu 27 km-dən artıq olan avtomobil, 22 km olan velosiped yollarından rahat şəkildə istifadə edə biləcək.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "aşıl enerji" onasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq, şəhərin enerji təminatı bərpaolunan enerji potensialından istifadə edilməklə həyata keçiriləcək. Əhalinin içməli su təminatı isə Ağçayın su mənbələri hesabına ödəniləcək. Kəlbəcər şəhərinin iqtisadi inkişafında xidmət və kənd təsərrüfatı sektorları böyük rol oynayacaq. Şəhər yenidən qurulan "İstisu" sanatoriyasına yaxın ərazidə yerləşdiyindən burada müalicəvi turizmin inkişafına təkan verəcək obyektlər də inşa olunacaq.

### "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ"NƏ TÖHFƏ

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi istiqamətində strategiyasına uyğun olaraq Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su Elektrik Stansiyası Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən yaşıl enerji növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir.

Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular yerləşdirilərək tikilib. Bu layihə BMT-nin iqlim dəyişikliyi ilə mübarizə və yaşıl enerjiyə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. "Yuxarı Vəng" SES "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən əhəmiyyətli təşəbbüslərdən biri olmaqla, Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilib və ölkəmizin yaşıl enerji inkişafına sadiqliyini göstərən bir nümunədir. Stansiya əhalinin məşğulluğu baxımından da mühüm rol oynayır və burada məhz Kəlbəcər rayonunun sakinlərinin işlə təmin olunması nəzərdə tutulur. Bütün bunlar isə əhalinin dayanıqlı məşğulluğuna əlverişli zəmin yaradacaq.

***Zümrüd BAYRAMOVA***

# Leyla Əliyeva COP29 çərçivəsində bəbirlərin mühafizəsinə həsr olunmuş tədbirdə çıxış edib




***Noyabrın 21-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN), IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin (İB) və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində ”Dəyişən iqlim şəraitində bəbirlərin mühafizəsi” mövzusunda panel müzakirələri təşkil olunub.***















AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirin açılışında çıxış edərək iqlim dəyişmələrinin və qlobal ekoloji sistemdə mənfi tendensiyaların müşahidə edilməsinin Qafqaz bəbirləri də daxil olmaqla, bir çox canlının populyasiyasını təhlükə altına qoyduğunu bildirib. Qeyd edib ki, temperaturun yüksəlməsi və digər çoxsaylı təbii kataklizmlər bəbirlərin təbiətdə sağ qalmasını çətinləşdirir.

IDEA tərəfindən icra olunmuş çoxsaylı fəaliyyətlər, o cümlədən ETSN və WWF ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş ”Azərbaycanda bəbirlərin populyasiyasının bərpası” layihəsinin bəbirlərin ölkəmizdə sayının artırılmasına verdiyi töhfə barədə layihə iştirakçılarına ətraflı məlumat verilib. Leyla Əliyeva diqqətə çatdırıb ki, 2014-cü ildə keçirilmiş Qafqaz Biomüxtəlifliyi Sammiti Cənubi Qafqaz bölgəsində ekoloji tarazlıq və canlıların mühafizəsi məsələlərinə diqqətin artırılmasını təmin edib. IDEA İB-nin təsisçisi və rəhbəri vurğulayıb ki, atılan addımların sayəsində ötən illər ərzində Azərbaycan ərazisində 23 bəbir fərdinə rast gəlinib. Çıxışının sonunda Leyla Əliyeva bəbirlərin səmərəli mühafizəsini təmin etmək məqsədilə qlobal səyləri daha da möhkəmləndirməyə çağırıb.

Daha sonra WWF-in Avropa və Şimali Afrika üzrə regional direktoru Ajay Barai, təşkilatın Azərbaycan ofisinin direktoru Elşad Əsgərov, WWF-in Almaniya ofisinin direktoru Aurel Heidelberg, ETSN-in Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının pişikkimilər üzrə eksperti Tatjana Rosen və ”Ecocorridors Fund for the Caucasus” təşkilatının nümayəndəsi Jernej Stritih çıxış ediblər.

# “Haber Global”: Fransanın Azərbaycana düşmən münasibəti COP29 fonunda da özünü büruzə verdi

***Fransanın Azərbaycana qarşı düşmən münasibəti Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) fonunda da özünü büruzə verib. Bu barədə Türkiyənin ”Haber Global” telekanalının reportajında deyilir. Qeyd olunur ki, bu dəfə anti-Azərbaycan isterikasını və intriqalarını təbliğ etmək üçün alət qismində arxasında Fransanın xarici siyasət və hərbi kəşfiyyatının birgə xidmətinin (DGSE) dayandığı ”Havas” şirkətlər qrupu çıxış edib.***

Telekanal 169 ölkənin 72 min nümayəndəsinin iştirakı ilə COP29 gündəliyinin kritik əhəmiyyətinə və Fransanın dünya ictimaiyyəti üçün belə mühüm hadisənin gedişatına xələl gətirmək cəhdlərinə diqqət çəkib.

Reportajda tanınmış ”Intelligence Online” (IO) xəbər resursunun məlumatlarına istinadla qeyd edilir ki, buna görə Parisin nəzarətində olan ”Havas” rabitə qrupu COP29 ərəfəsində Azərbaycanın imicinin pisləşməsini maksimum dərəcədə artırmaq məqsədi ilə genişmiqyaslı təbliğat kampaniyasına başlayıb.

Türkiyə telekanalı bildirib: ”Azərbaycanın opponentləri COP29-da iştirakdan imtina etmək ideyasını ev sahibi ölkənin neft və qaz istehsalçısı olması səbəbindən fəal şəkildə irəli sürürlər. Üstəlik, Avropa ölkələrində, Rusiyada və ABŞ-da eyni vaxtda anti-Azərbaycan isterikası davam edib”.

”Haber Global” izləyicilərini noyabrın 5-də ”Havas”ın baş direktoru Stefani Fuksun Rusiya və ABŞ-dakı media strukturlarına elektron poçtla göndərdiyi məktub haqqında məlumatlandırıb. Mesajda Fransanın keçmiş insan haqları elçisi, hazırda ”Zimeray & Finelle” hüquq firmasının rəhbəri Fransua Zimeray ilə müsahibə təşkil etməyə hazır olduğu qeyd edilib.

Fuks öz mesajında Zimerayın jurnalistlərin ”fransız diplomatiyasının təhlükəsizlik, insan hüquqları və iqlim sahələrində səyləri” ilə bağlı sualları cavablandırmaq istəyinə işarə edib. Türkiyə telekanalı qeyd edir ki, ”Zimeray & Finelle” şirkətinin rəhbəri təkcə türklərə nifrət ilə deyil, həm də aktiv ermənipərəst fəaliyyəti, xüsusən də beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı iddialara dəstək verməsi ilə tanınır. ”Haber Global” qeyd edib ki, ”müsahibə təklifi” ilə kifayətlənməyən ”Havaş” Rusiyada ”erməni hərbi əsirlərin azad edilməsi” tələbi ilə anti-Azərbaycan kampaniyasını gücləndirib. Telekanal qeyd edir ki, Rusiya Federasiyasında ”Havas” kampaniyası erməni separatçı Ruben Vardanyanın tərəfdarları tərəfindən maliyyələşdirilib.


HABER|GLOBAL SON DAKİKA WEB ÖZEL RESMİ İLANLAR GÜNDEM

Havas'ın iklim kumpası, Fransa'nın kirli oyunu deşifre oldu

Fransa'nın; Azerbaycan düşmanlığı bu kez İklim Zirvesi'nde ortaya çıktı. Paris yönetimi, büyük bir halka ilişkiler firmasını kullanarak dünyanın dört bir yanında Azerbaycan'ı ve küresel zirveyi baltalamaya çalışan lobi faaliyetleri yürüttü. Bakü'ye kurulan kumpasın arkasında Fransız Dış İstihbarat Servisi DGSE'nin olduğu anlaşılırken, İstihbarat kaynaklarına göre Fransa'nın tüm çabaları boşa düştü.

ABŞ-da Azərbaycan əleyhinə isterika Nyu-Yorkun ”Edelman Global Advisory” və Vaşinqtonun ”Moran Global Strategies” şirkəti vasitəsilə təbliğ edilib. Avropa İttifaqına gəlincə, NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin məxsus olduğu Danimarka şirkəti ”Rasmussen Global” da ”Havas”ın müttəfiqinə çevrilib.

Reportajda ”Rasmussen Global”in Brüsseldə İrəvanın maraqlarını təbliğ etməklə Ermənistan hökumətinə yaxınlığı ilə tanınmasına diqqət çəkilir.

Böyük Britaniyada ”Havas”ın Azərbaycan əleyhinə təbliğatı ”Sanctuary Counsel” lobbi strukturu tərəfindən ələ keçirilib. ”Lakin bütün səylərə baxmayaraq, Azərbaycanın diplomatik və iqtisadi addımlarının effektivliyi sayəsində Fransa heç vaxt istədiyinə nail ola bilmədi”, - deyə ”Haber Global”ın reportajında vurğulanır.

# YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyasının (KXP) ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyası çərçivəsində ICAPP Daimi Komitəsinin (DK) 42-ci iclasında iştirak edib. Tədbirdə ICAPP-ın cari il ərzində fəaliyyətinə nəzər salınıb, Daimi Komitənin yeni üzvləri təqdim olunub və qurumun gələcək planlarına dair ətraflı fikir mübadiləsi aparılıb.***

Əvvəlcə Kamboca Xalq Partiyasının Prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen açılış nitqi ilə çıxış edib. O, ICAPP rəhbərliyinə və Daimi Komitənin üzvlərinə minnətdarlıq edərək qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb.








Daha sonra ICAPP Daimi Komitəsinin sədr müavini və Kamboca Xalq Partiyasının Əbədi əlaqələr komissiyasının sədr müavini Suos Yara ICAPP-ın 12-ci Baş Assambleyasına hazırlıq işləri barədə məlumat verib. Eyni zamanda, Assambleyanın Büro üzvlüyünə namizədlərin siyahısına baxılıb. İclasda, həmçinin ICAPP-ın BRICS vasitəsilə müxtəlif ölkələrlə, o cümlədən müxtəlif siyasi partiyalarla əməkdaşlıq məsələləri nəzərdən keçirilib. ICAPP-ın YUNESKO ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə də təkliflər səsləndirilib.

Həmin gün Kamboca Xalq Partiyasının Prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının fəxri prezidenti Hun Sen adından Assambleyanın iştirakçıları üçün rəsmi ziyafət təşkil olunub.

# "Ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd edirik"

## Milli Məclis Lüksemburq Deputatlar Palatasının qətnaməsinə münasibət bildirib

***Azərbaycan Respublikasının Milli Məclisi Lüksemburq Deputatlar Palatasının bu il noyabrın 20-də qəbul etdiyi qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirir, ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd edir. Lüksemburq parlamentinin bu siyasi aksiyası həmin ölkənin parlamentinin siyasi avantüra meydanına çevrildiyini göstərir. AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin Lüksemburq Deputatlar Palatasının qətnaməsinə dair açıqlamasında yer alıb.***




Bildirilib ki, Azərbaycanın suverenliyinə aşkar hörmətsizliyin, onun milli təhlükəsizliyinin, ictimai sabitliyinin və ərazi bütövlüyünün qorunması üçün görülən tədbirlərə etinasızlığın nümayiş etdirildiyi qətnamədə ölkəmizdə cərəyan edən proseslər ilə bağlı qaldırılan məsələlər daxili işlərə kobud müdaxilədən başqa bir şey deyil.

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri barəsində irəli sürülən iddialar tamamilə əsassızdır. Seçki praktikasının təkmilləşdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi irəliləyiş beynəlxalq miqyasda təsdiqlənib. Seçkilər milli qanunlara və beynəlxalq öhdəliklərə tam uyğun keçirilib.

Özbaşına həbslər, fikir və toplaşma azadlığının məhdudlaşdırılması barədə qətnamədə ifadə edilən fikirlər kobud təhriflər üzərində qurulub. Müxtəlif hesabatlarda adları hallandırılan şəxslərin həbsləri milli qanunların pozulduğunu göstərən tutarlı sübutlar əsasında həyata keçirilmiş və bu zaman lazımi hüquqi prosedurlara əməl edilib.

Qətnamədə siyasi məhbuslar ilə bağlı irəli sürülən iddialar əsassızdır və Azərbaycanın gözdən salınmasına yönələn kampaniyanın tərkib hissəsini təşkil edir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, demokratik proseslərin möhkəmləndirilməsi üçün göstərilən səylərin üzərinə kölgə salmaq cəhdi təəssüf doğurur.

Avropa Şurası Parlament Assambleyasının 76 deputatının, o cümlədən Lüksemburq Deputatlar Palatası üzvlərinin "persona non qrata" elan olunması məhz Azərbaycanın sülh və sabitlik yaradılması səylərinə zidd hərəkətlərin fəal surətdə dəstəklənməsi, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə aşkar hörmətsizliyin nümayiş etdirilməsi ilə bağlı olub. Həmin tədbirlərin ləğvinə çağırış bu cür dəstəyin ikitərəfli və çoxtərəfli münasibətlər üçün doğurduğu ağır nəticələrin dərk edilmədiyini göstərir.

Azərbaycan Respublikası Lüksemburq da daxil olmaqla, bütün beynəlxalq tərəfdaşlar ilə konstruktiv dialoqa sadiqdir, lakin bu cür dialoq qarşılıqlı hörmətə və beynəlxalq hüquqa riayət edilməsinə əsaslanmalıdır. Bununla əlaqədar Azərbaycan Milli Məclisi Lüksemburq Nümayəndələr Palatasından aqressiv ritorikanı kənara qoymağı, eləcə də parlament dialoqu və diplomatiyası prinsiplərinə zidd olan, etimadı və əməkdaşlıq yaradılması səylərini sarsıdan qətnamələr qəbul edilməsi praktikasından əl çəkməyi tələb edir.

# COP29-un hindistanlı iştirakçısı: "Dünya səkkiz milyard insan üçün ədalətli şəkildə yaşanacaq bir yer olmalıdır"

COP29 konfransının təşkilatçılığı və ümumi mühit barədə fikirlərim müsbətdir. Tədbirdə iştirak edən gənclərin fəallığı və yardımsevərliliyi məni heyrətləndirir. Səhər tezdən, günorta və ya axşam, ümumiyyətlə, fərqli saatlarda belə gülər üzlə istiqamət verən və kömək edən gəncləri görmək möhtəşəm hissdir. Tədbirdə təşkilatçılıq çox mükəmməldir. Şəhərdəki yeməklər çox ləzzətlidir və Hindistan mətbəxinə yaxınlığı ilə diqqət çəkir. Nəqliyyat vasitələri də çox rahatdır, baxmayaraq ki, bəzi tarixi səbəblərə görə küçə adlarının yazılışı bizdəkindən fərqlidir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında COP29 çərçivəsində ölkəmizə gələn Qlobal İqlim Fəaliyyətinin hindistanlı nümayəndəsi Sheela Bharat Patel söyləyib. Konfrans iştirakçısı əlavə edib ki, tədbirin təşkili və logistika baxımından hər şey yüksək səviyyədədir. "Qlobal problemlərin həllində hələ çox iş görülməlidir. Bu, mənim COP konfranslarında beşinci iştirakımdır və gözləntilərim əsasən maliyyə ilə bağlıdır. İqlim maliyyələşdirilməsi çətin, xüsusən də Qlobal Cənub ölkələri üçün aktualdır. Məlumdur ki, bu problemlər tez zamanda həll olunmayacaq. Amma biz davam etməliyik. Qlobal Şimal ölkələri tarixən Qlobal Cənubdan sərvət daşıyaraq özlərini inkişaf etdirib. Bunun nəticəsində kiçik ölkələr, xüsusən Hindistandan kiçik olanlar, böyük borc problemləri ilə üzləşib".

O, iqlim dəyişikliyi ilə mübarizədə ədalətin daha ön planda olmasının vacibliyini qeyd edib. S.B.Patel vurğulayıb ki, konfranslardan sonra iştirakçılar bəzən ümidsiz ayrılsa da, mübarizə əzmi itməməlidir. "Biz dünyanın bərpası üçün çalışmalıyıq. Sadəcə, zənginlərin problemlərdən qaçmaq üçün kosmosa getməsi həll yolu deyil. Dünya səkkiz milyard insan üçün ədalətli şəkildə yaşanacaq bir yer olmalıdır", - deyə o əlavə edib.

# Erməni terroru kilsədən təlimat alır

Erməni terroru bəşər tarixin ən amansız və qəddar terroru hesab olunur. Çünki erməni terroru harada peyda olursa orada insanlıq məhv olur, şəhər və qəsəbələr yerlə yeksan olur, tarixi mədəniyyət nümunələri sıradan çıxır. Təkcə Azərbaycan əhalisi dörd dəfə - 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə erməni terrorunun qurbanı olub və nəticədə 2 milyondan çox insan həyatını itirib, sağlamlığından məhrum olunub. 1918-ci ilin mart qırğınları isə xalqımıza qarşı həyata keçirilən soyqırımı siyasətinin ən dəhşətli səhifələrindəndir. Martın 30-u, 31-i və aprelin 1-də ermənilər bolşevik Rusiyanın hərbi yardımı ilə təkcə Bakıda 15 min azərbaycanlını qətlə yetiriblər. Erməni vəhşiləri Bakıda, Şamaxıda, Qubada, Xaçmazda, Ağsuda, Kürdəmirdə, Salyanda, 50 mindən çox soydaşımızın həyatına son qoydular. Şamaxı qəzasında 58, Quba qəzasında 112, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Qars vilayətində 82 yaşayış məntəqəsi, yerlə yeksan edilmiş, yüz minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyondan çox soydaşımız tarixi-etnik torpaqlarından didərgin salınmışdır. Bu və digər faktlara istinadən demək olar ki, dünyanın ən vəhşi və vandal toplumunun ermənilərdən ibarət olduğunu desək səhv etmərik. O dərəcə vəhşi və idarəolunmaz terror əməlinə malik toplumdur ki, sovetlər dönəmində belə öz məkrli niyyətlərindən və məqsədlərindən əl çəkməmişlər. Hətta İkinci Dünya müharibəsindən qısa müddət sonra yaralar sağalmamış, daxili problemlər aradan qaldırılmamış erməni kilsəsi sovet rəhbərliyindən, xüsusilə də İosif Stalinə Azərbaycanın tarixi torpaqlarından onlara yeni ərazilərin verilməsi tələbi ilə müraciət etmişlər. 1945-ci il aprelin 19-da bütün ermənilərin VI katolikosu, arxiyepiskop Gevorq Çeorekçiyan SSRİ dövlətinin rəhbəri İ. Stalinə 11 bənddən ibarət ərizə ilə müraciət edir və onunla görüşür. Bu görüş zamanı İ.Stalin katolikosa xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçməyə və bundan əlavə Türkiyə Cümhuriyyətindən qondarma "Qərbi Ermənistan" adlanan torpaqların geri alınacağını söyləyir. Katolikosun ərizəsinin üstünə "Razıyam. Xalq Komissarları Sovetinin sədri İosif Stalin. 19.04.1945-ci il" dərkənarını qoyur. Nəticə etibarı ilə 945-ci il noyabrın 21-də SSRİ XKS-ti "Sovet Ermənistana xarici ölkələrdən qaytarılmaları ilə bağlı tədbirlər" haqqında 2947 saylı qətnamə qəbul edir. Bu qərarı alan Ermənistan SSR rəhbəri G.Arutinov İ.V.Stalinə Azərbaycanın qala qapısı, ulularımız qurucusu, məskən yeri olan Qarabağın Ermənistan SSR tərkibinə verilməsi ilə bağlı ona məktubla müraciət edir. İ.V.Stalin məktubu G.M.Malenkova ünvanlayır və məsələni Azərbaycan SSR rəhbəri M.C.Bağırovla müzakirə etməyi tapşırır. 1945-ci il noyabrın 28-də UİK(b)P MK-nın katibi G.M.Malenkov Azərbaycan KP(b)P MK-nın birinci katibi M.C.Bağırova teleqram vurur. A.Arutyunovun məktub-layihəsindəki dəlilləri alt-üst edən M.C.Bağırov bildirir ki, əgər ermənilərin əsas götürdükləri səbəbə görə Yuxarı Qarabağın Ermənistana verilməsi məqbul sayılırsa, nə olar, qoy DQMV-nin Şuşa rayonu istisna olunmaqla ərazisi Ermənistana verilsin. Ancaq bir şərtlə azərbaycanlıların yaşadığı Vedi, Qarabağlar və Yeğeqnadzor rayonları Naxçıvana birləşdirilsin, habelə, vaxtilə Gürcüstana və Dağıstana verilən Azərbaycan torpaqları geri qaytarılsın.



## Erməni toplumu terror deməkdir

Bu tutarlı tələb qarşısında aciz qalan ermənilər iddialarından geri çəkilir. Bununla belə ermənilər 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyətinin xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı "Xarici ölkələrdən vətənləri Sovet Ermənistanına qayıdan milliyyətcə erməni olan şəxslərin SSRİ vətəndaşlığı almaq qaydaları haqqında" adlı qərarın verilməsinə nail oldular. Məhz xaricdən bölgəyə köçürülən ermənilər 1988-89-cu illərdə Azərbaycana qarşı terror aktları həyata keçirməyə başladılar. Əsrlərlə öz tarixi torpaqlarında yaşamış 250 mindən çox azərbaycanlı dədə-baba torpaqlarından zorla deportasiya edilmişdir. Deportasiya zamanı 225 nəfər qətlə yetirilmiş, 300 nəfər müxtəlif bədən xəsarətləri almış, 2000-ə yaxın azərbaycanlı türklərinin yaşadıqları kəndlər boşaldılmış, azərbaycanlılara məxsus tarixmədəni abidələr və qəbiristanlıqlar dağıdılmış, tarixi-coğrafi adlar dəyişdirilmiş, insanların mülkləri və şəxsi əşyaları əvəzsiz mənimsənilmişdir. Ermənilər vəhşi əməlləri ilə beynəlxalq sənədlərin müddəalarını kobudluqla pozmuşlar: BMT Nizamnaməsi; "İnsan Hüquqlarının Ümumi Bəyannaməsi" (1948); "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası (1950); Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (1966); "Dini əqidə əsasmda diskriminasiya və dözülməzliyin bütün formalarının ləğv edilməsi haqqında" Bəyannamə (1986); "Hərbi cinayətlər və bəşəriyyət əlehinə olan müddət tarixinin tətbiq edilməməsi haqqında" Konvensiya (1968) və s. Beynəlxalq qanunları erməni toplumu kobud şəkildə pozaraq azərbaycanlıları öz doğma yurd- yuvalarından didərgin salmışlar. Bununla kifayətlənməyib Qarabağa qarşıda iddialar irəli sürmüş və xaricdəki himayədarlarından hərbi - siyasi dəstək almaqla ərazidə yaşayan dinc insanlara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Halbuki bu ərazilərdə yaşayan əhalinin, bir neçə kənd istisna olmaqla, bütünlükdə azərbaycanlılardan ibarət olub. 1923- cü ilə qədər, yəni Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılana qədər Dizax, Vərəndə, Çiləbird, Xaçın, Talış məlikliyi Xəmsə adlanırdı. Qarabağ xalçası, Qarabağ geyim növləri, əltikmə işləri nəinki Azərbaycanda, hətta bütün Şərq ölkələrində tanınmışdı və yüksək qiymətləndirilirdi. Qarabağda özünəməxsus çəki və ölçü vahidi mövcud idi. Qarabağ şairlərini birləşdirən Məclisiüns və Məclisi-fəramuşan öz üslubu ilə seçilirdi. Qarabağ musiqi məktəbi isə, hətta bütün Şərqdə məşhur idi. Pənahəli xanın Qarabağın paytaxtı olaraq tikdirdiyi (1750-1757) Şuşa Zaqafqaziyanın konservatoriyası hesab olunmuşdur. XVIII əsrin sonları - XIX əsrin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi. İbrahim xan Rusiya qoşunlarının komandanı R.D. Sisianovla (1802-1806) Kürəkçayda müqavilə bağladı. Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman - Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi Qarabağın Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.





## Erməni vəhşiliyinə və işğalına 44 günlük savaşla son qoyuldu

Qarabağın işğal edilməsində ermənilərə Rusiya və Avropanın müəyyən dairələri ilə yanaşı özünü müsəlman dövləti kimi təqdim edən, lakin əməli fəaliyyətində erməni qardaşlığı nümayiş etdirən indiki fars -molla rejiminin də müstəsna rolu və xidməti var. Unutmaq olmaz ki, Fars-molla rejiminin o zaman Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra etmiş Yaqub Məmmədovu Tehrana dəvət edib, sonra da Şuşanın ermənilər tərəfindən işğal edilməsinə yardım göstərib. Həmin dönəmdə guya Tehran rejimi Ermənistan prezidenti Ter Petrosyanla Yaqub Məmmədov arasında cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalanmalı idi. Belə məqamda Şuşa işğal olundu. Sonradan aydın oldu ki, molla rejimi Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. Fars molla rejiminin məkrli fəaliyyəti bununla yekunlaşmır. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın yüksək dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da fars-molla rejiminin əlinin olduğu sübuta yetirilir. Mövcud faktlara və sübutlara görə, terror aktını törədən 17 nəfərdən dördü SEPAH-ın əməkdaşı olub. Həmin terror aktını törədən şəxsləri hadisəni törətdikdən sonra molla rejiminin xüsusi xidmət orqanlarının yardımı ilə Tehrana oradan isə Kandaya, bəziləri isə Livana qaçırılmışlar. Fars-molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi ayətullah Xomeneynidir. Xomeneynidən qalma ideologiyaya görə, (bu həm də xomeneyizm ideologiyası adlanır) müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Lakin hakimiyyətə gələn şəxslər bu, ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Burada Azərbaycanın regionun lider dövlətinə çevrilməsi beynəlxalq münasibətlər sistemində söz sahibi olması da ölkəmizə qarşı qısqanclıq hissinin yaranmasına səbəb olur. Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik, mövcuddur. Ona görə də hər cür iyrənc vasitərdən istifadə etməklə Azərbaycanın uğurlarına kölgə salmağa çalışırlar. Lakin bütün çirkin və məkrli siyasətə baxmayaraq Azərbaycan xalqı lideri, Fateh Sərkərdə , Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə 44 günlük Vətən Müharibəsi ilə erməni işğalına son qoyub, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu gün Azərbaycan ərazisində hər hansı bir separatizm və erməni terrorunun qalıqları mövcud deyil. Hazırda işğaldan azad edilən torpaqlarda inkişaf var, insanların öz yurd-yuvalarına qayıdışı var. Bütün bunlar Azərbaycanın gücündən, qüdrətli dövlət olmasından xəbər verir.

***İLHAM ƏLİYEV***

# Siyavuş Novruz: “YAP-ın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi”



**Ölkənin tanınmış ictimai-siyasi xadimi, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun "Səs" İnformasiya Agentliyinə verdiyi müsahibəni təqdim edirik:**

MÜSAHİBƏ

***- Bu günlərdə Yeni Azərbaycan Partiyasının 32-ci ildönümü qeyd olunur. Partiya hansı tarixi zərurətdən yarandı və qarşıya qoyulan başlıca məqsəd nədən ibarətdir?***

- İlk növbədə, bütün xalqımızı, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvlərini təbrik edirəm. Partiyanın yaranmasından artıq 32 il ötür. YAP tarixi zərurətdən yaranmış bir partiya idi. Bu gün də partiyanın yaranması zərurəti nəticəsində YAP-ın ölkəmizdə həyata keçirdiyi islahatların bilavasitə şahidiyik. 31 ildir ki, Yeni Azərbaycan Partiyası iqtidardadır. Ümummilli Lider Heydər Əliyevin və hazırki Prezident cənab İlham Əliyevin sədrliyi ilə partiyamız ölkə həyatında həyata keçirilən bütün işlərdə, islahatlarda, tədbirlərdə yaxından iştirak edir, dövlətinə dayaqdır və ölkənin bütün ağır yükünü öz üzərində daşıyır və daşımağa da hazırdır. O baxımdan YAP-ın gələcək fəaliyyətində də bol uğurlar arzulayıram.

Təbii ki, 32 il bundan öncəyə nəzər salsaq görərik ki, ölkəmizdə çox acınacaqlı bir vəziyyət idi. Yeni Azərbaycan Partiyasının yaranma tarixi demək olar ki, ölkə müstəqilliyinin tarixi ilə eynidir. Keçmiş pos-sovet məkanında ən acınacaqlı müstəqillik məhz Azərbaycana nəsib oldu. Bir tərəfdən yerində olmayan rəhbərlər, digər tərəfdən səriştəsizlik, həmçinin ermənilərin Azərbaycana qarşı torpaq iddiası, hərc-mərclik, özbaşınalıq, idarəçiliyin bilinməməsi və s. bu kimi halları ortaya saldı. Bütün insanların arzusu, istəyi, təklifi ondan ibarət idi ki, onları düşdükləri bu vəziyyətdən ancaq təcrübəli, bacarıqlı, dünyagörüşlü, xalqını, Vətənini, dövlətini sevən, ölkəsinə sadiq olan və həyat təcrübəsində bunu göstərmiş bir şəxsiyyət xilas edə bilər. Onu da məhz Ümummilli Lider Heydər Əliyevin simasında görürdülər. Baxmayaraq ki, həm ermənilər, həm də o vaxtki hakimiyyət tərəfindən Naxçıvan Muxtar Respublikası blokada vəziyyətində idi. Burada bir informasiyanın belə kənara sızdırılmasına imkan verilmirdi. Hətta orada olan əhaliyə ərzaq məhsullarının çatdırılmasına belə məhdudiyyətlər tətbiq olunmuşdu. Belə bir məqamda insanlar düşündü ki, hakimiyyətə gəlməyin yeganə qanuni yolu partiyadır və onun yaranıb seçkilərdə iştirak etməsidir. YAP fəaliyyət göstərdiyi istər iqtidarda, istərsə də müxalifətdə olduğu dövrdə qanundan kənar heç bir fəaliyyətlə məşğul olmayıb. Müxalifətdə və iqtidarda olanda da qanun çərçivəsində mübarizəsini aparıb. O vaxtı partiyanın üzvləri olan insanlar yaş senzi ilə bağlı mitinqlər keçirirdi ki, Ümummilli Liderin namizədliyi qeydiyyata alınsın. Sinəsinə döyənlər, demokratiyadan dəm vuranlar o zamanlar buna imkan vermədilər. Hətta Azərbaycan Respublikası Konstitusiyasının 121-ci maddənin ikinci bəndinə düzəlişlər etdilər ki, 65 yaşından yuxarı olanlar namizədliyini irəli sürə bilməsinlər.

Bildiyiniz kimi bu yaxınlarda dünyanın aparıcı dövlətində Amerika Birləşmiş Ştatlarında (ABŞ) növbəti prezident seçkiləri keçirildi və Cozef Bayden 82 yaşında seçkilərə qatılmaq istəyirdi. Donald Tramp isə 78 yaşında yenidən ABŞ-nin prezidenti oldu. Eləcə də Fransa dövlətində Jak Şirak, Türkiyədə Süleyman Dəmirəl və s. olmaqla digər yerlərdə yaşlı nəslin nümayəndələri var idi. Adətən seçmək-seçilmək, səs vermək və digər hüquqlar üçün 18 yaş həddi müəyyənləşdirilir. Amma yuxarı yaş həddi dünyanın heç bir yerində yoxdur. Heç kimə sirr deyil ki, bu gün insan yaşlaşdıqca daha da müdrikləşir və təcrübəsi artır. 65 yaş insan üçün ən məhsuldar dövrdür. Ulu Öndər Heydər Əliyevin qarşısını almaqdan və Onunla mübarizəyə girmək qorxusundan məhz belə bir maddə irəli sürüldü. Nəticə etibarilə biz Ali Sovetin qarşısında 18 gün yaş senzi ilə bağlı mitinqlər keçirsək də amma buna da imkan vermədilər. Baxmayaraq ki, namizədlik məsələsi o zamanlar müəssisə-təşkilatlar tərəfindən irəli sürülürdü. Heydər Əliyevin də namizədliyini 300-dən artıq müəssisə-təşkilat irəli sürmüşdü. O vaxtlar həmin sənədləri mən özüm toplayırdım. Həmin dövrdən prezidentliyə namizədlərin səlahiyyətli nümayəndəsi kimi fəaliyyət göstərmişəm. Biz həmin sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etsək də komissiya sənədləri qəbul etmədi. Əsaslandırıldı ki, qanunda buna icazə verilmir və oan görə də Heydər Əliyevin namizədliyi qeydə alınmadı. Belə olan təqdirdə insanlar fikirləşdilər ki, ancaq partiya yaratmaqla və Heydər Əliyev partiyaya rəhbərlik etməklə, siyasi mübarizə aparmaqla növbəti dəfə keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyası tam qələbə çala bilər.

***- Cəmiyyətin öndə gedən bir qrup ziyalısı 16 oktyabr 1992-ci ildə "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət etdi. "91-lər"-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. İstərdik bir qədər də bu barədə danışaq.***

- 1992-ci il mayın 28-də Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində ”Ümid” körpüsünün açılışı olmuşdu və biz də ”Əlincə” Xeyriyyə Cəmiyyəti olaraq həmin açılışa dəvət olunmuşduq. ”Səs” qəzeti də həmin ”Əlincə” Xeyriyyə Cəmiyyətinin orqanı idi. ”Səs” qəzeti yeganə qəzet olub ki, Heydər Əliyevin səsini bütün dünyaya yayıb. O zamanlar ölkəmizin regionları arasında Naxçıvan daha çətin durumda idi və iqtisadi, siyasi, informasiya cəhətdən blokadaya alınmışdı. Yadımdadır ki, qəzet o informasiyanı yardı və Naxçıvan Ali Məclisinin qəbul etdiyi bütün qərarları öz səhifəsində dərc etdirdi. Biz bunları çox çətin mübarizələr şəraitində edirdik. Çünki bildiyiniz kimi o zamanlar senzura fəaliyyət göstərirdi və harda Ümummilli Lider Heydər Əliyevin adı gəlirdisə dərhal o səhifəni çıxarırdılar və yayımlanmasına imkan vermirdilər. Amma buna baxmayaraq çox çətin və mübarizə şəraitində yazılar dərc olundu. ”Səs” qəzetinin elə nömrələri olurdu ki, ancaq Naxçıvan Ali Məclisinin, Heydər Əliyevin qəbul etdiyi qərarlara həsr olunurdu. ”Səs” partiya yaranana qədər də Ümummilli Liderin səsini bütün dünyaya çatdırırdı. Qəzetin adının ”Səs” seçilməsi də əbəs yerə deyildi. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qurultaylarda, toplantılarda 5-6 dəfə də olsa ”Səs” qəzetinin adını çəkirdi. Hətta yeganə müsahibə verdiyi qəzeti belə ”Səs” olub.

Təbii ki, ”91-lər”-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilir, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşür. Yəni, sözün əsl mənasında Vətən əldən gedirdi. Belə bir şəraitdə 91 ziyalı Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi. Bütün Azərbaycan xalqı görürdü ki, Heydər Əliyev Naxçıvanı məhv olmaqdan xilas etdi. Blokada şəraitində olan bir bölgədə insanlarla Heydər Əliyevin birliyi bütün çətinliklərə sinə gərdi. Bütövlükdə bütün xalqımız Heydər Əliyevi çox sevirdi. Çünki Ulu Öndərimiz bütün həyatı boyu xalqına şərəflə xidmət etmişdi. Beləliklə, o dövrdə ”91-lər” çox mühüm missiyanı həyata keçirdi.

Ulu Öndər ”91-lər”in müraciətinə bir neçə gündən sonra verdiyi müsbət cavab yenə ”Səs” qəzetində dərc olundu və partiyanın yaradılması istiqamətində hazırlıq işləri başladı. ”Səs” qəzeti rupor rolunu oyanyırdı.Hakimiyyət isə Heydər Əliyevin rəhbərliyi ilə partiyanın yaranmasının qarşısını almağa çalışırdı. Onlar başa düşürdülər ki, xalqın Heydər Əliyevə böyük sevgisi var və belə bir partiya yaransa, xalqın ən güclü siyasi təşkilatına çevriləcək. Ona görə də, partiya işi ilə məşğul olan şəxslərə qarşı hədə-qorxular edirdilər, fiziki təzyiqlərə məruz qoyurdular. Amma bütün bunlar bu insanların iradəsini sındıra bilmədi. 1992-ci ilin oktyabr ayında isə Naxçıvanda Ulu Öndər Heydər Əliyevi hakimiyyətdən devirməyə cəhd göstərdilər. Amma Naxçıvan əhalisi Heydər Əliyevi qorudu və çevriliş cəhdi edənlərə tutarlı cavab verdi. Beləliklə, bütün çətinliklərə rəğmən 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Heydər Əliyev partiyanın Sədri seçildi, eləcə də YAP-ın Proqram və Nizamnaməsi qəbul olundu, partiyanın rəhbər orqanları formalaşdı. Bundan sonra isə respublikada təşkilatlanma prosesi başlandı. Bu günə qədər də YAP-ın Proqram və Nizamnaməsində bir vergül belə olsun dəyişiklik olmayıb. Çünki Ümummilli Lider öz qələmi ilə onu ustalıqla hazırlayıb. 1992-ci ilin dekabrın sonlarında ilk YAP-ın ilk Biləsuvar rayon təşkilatı yarandı, daha sonra Sabirabad və Şərur təşkilatları yarandı. Sonradan isə digər təşkilatlar yaranmağa başladı. Bunu o zamanlar görən AXC-Müsavat cütlüyü dərhal fövqəladə vəziyyət elan etdilər. ”Səs” qəzeti o zamanki iqtidarlar, demokratiyadan dəm vuranlar tərəfindən bir neçə dəfə bağlanıb. Hətta qəzetin binasına bir neçə dəfə basqınlar olmuşdu, redaksiya dağıdılmışdı və əməkdaşlarına xəsarətlər yetirilmişdi. Hətta ”91”-lərin üzvlərini Bakı Şəhər Prokurorluğuna çağırıb döyürdülər. YAP İdarə Heyətinin sabiq üzvü, görkəmli alim, pedaqoji elmlər doktoru, professor, Moskvadakı Beynəlxalq Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, tanınmış ictimai-siyasi xadim Zahid Qaralovun ”Heydər dağına kölgə salmaq olmaz” adlı müsahibəsi ”Səs” qəzetində dərc olunduğuna görə ”Səs” qəzetinin ilk baş redaktoru Ağabəy Əsgərovu həbs etdirmək istəyirdilər. Partiyanın İdarə Heyətinin, Siyasi Şuranın üzvləri ara-sıra yazılar verirdi, çıxışlar edirdilər və beləcə təbliğatımız getikcə güclənirdi. Bu gün də ölkəmizin inkişafında, tərəqqisində YAP-ın Proqram və Nizamnaməsinin bütün layihələri tam şəkildə həyata keçirilir.

***- Siyavuş müəllim, bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı durmadan artmaqdadır. Bəs, hakim Partiyanın bundan sonrakı hədəfləri nədən ibarətdir?***

- 25 ildir ki, partiyanın təşkilati məsələlərinə rəhbərlik etmişəm. Hər il orta hesabla 25-35 minə yaxın insan partiyanın sıralarına qəbul olunurdu. Cənab Prezident İlham Əliyevin o zamanlar partiya sədrinin müavini seçilməsindən sonra yeni üzvlərin sayı daha da artdı. Təsəvvür edin ki, Milli Məclisin 8 nəfər bitərəf deputatı belə partiya sədrinə ərizə ilə müraciət edərək YAP-ın üzvü olmaq istədilər. Hətta nazirlər, komitə sədrləri də partiyaya üzv olmaq üçün müraciət etmişdilər. Əgər əvvəllər partiyaya üzv olanların sayı 200 min nəfər idisə, cənab İlham Əliyev partiyanın sədri olduqdan sonra üzvlərin sayı 500 mini ötmüşdü. Hazırda isə YAP-ın üzvlərinin sayı 800 minə yaxınlaşır. Sözün həqiqi mənasında bu insanlar əqidə ilə partiyanın işi, fəaliyyəti, ölkədə apardığı siyasəti görərək bura üz tuturlar. Partiya üzvləri də həm dövlət quruculuğunda, iqtisadiyyatın inkişafında, sosial problemlərin həll olunmasında yaxından iştirak edirlər.

***- Bu gün dövlət strukturlarının əksəriyyətində hakim Partiyanın üzvləri təmsil olunurlar. Hətta partiyanın özündə də görkəmli şəxsiyyətlər yer alır, xeyli sayda xanımlar və gənclər vardır. Onları başlıca olaraq hansı amal birləşdirir?***

- Onları partiyanın ətrafında yeni Azərbaycançılıq ideyası, Vətəninə, dövlətinə sədaqət, Heydər Əliyev yolu, siyasi xətti birləşdirir. Biz bu xəttin inkişaf etməsi və davamlı olması üçün davamlı addımlar atırıq. Bu gün xeyli sayda gənc məsil YAP-a üz tutur. Mən özüm 10 il YAP Gənclər Birliyinin sədri olmuşam. Ümummilli Lider Heydər Əliyevin açdığı o yol gənclərə çox müsbət təsir göstərdi. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev öz çıxışlarının birində qeyd etdi ki, qələbənin əsas təminatlarından biri də ondan ibarət oldu ki, bu gənclər Heydər Əliyevin və Mənim hakimiyyətim dövründə doğulub boya-başa çatmış gənclərdir. Artıq bu gənclər yeni informasiya texnologiyaları, sosial şəbəkələr və yeniliklərlə məşğul olaraq partiya işini, təbliğatını daha da irəli aparır. Bu gün onlar Azərbaycan həqiqətlərini dünyaya çatdırır və ölkəmiz əleyhinə olan qarayaxma kampaniyalarının qarşısını alır. Hesab edirəm ki, bu çox vacib amillərdən biridir. Ümummilli Liderin tarixi sözlərini xatırlatmaq istərdim. O deyirdi ki, ”Şuşasız Azərbaycan necə ola bilər”. Bu fikirlər çox adamın yadından çıxmışdı. Ulu Öndər həmin sözləri bugünkü günü düşünərək deyirdi. Ümummilli Lider Heydər Əliyev gənclər üçün tam meydan yaratmışdı. Heydər Əliyev çox doğru vurğulamışdı ki, ”Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır”. Bəli, YAP məhz gələcəyin partiyasıdır. Çünki bu müstəqillik, qələbələr, inkişaf dövründə, prezidentimiz tərəfindən həyata keçirilən islahatlar dövründə, dünyada aparıcı bir status qazandığı halda, dünyanın ən mötəbər tədbirlərinin Azərbaycanda keçirildiyi bir məqamda o gənclər artıq öz dövləti ilə fəxr etsinlər. Onlar qalib və inkişaf etmiş dövlətin vətəndaşlarıdır.

***- YAP beynəlxalq əlaqələr müstəvisində də daim inkişaf edir və öz sözünü deyir. Dünyanın baxış bucağından hakim Partiya necə görünür?***

- YAP az sayda partiyalardandır ki, dünyanın bir çox partiyalarında və partiya sistemlərində iştirak edir. Məsələn, Asiya Ölkələrinin Siyasi Partiyalarının İdarə Heyətinin üzvüdür. Orada 50-yə yaxın partiya mövcuddur. Hətta onların əksəriyyəti heç İdarə Heyətinin belə üzvü deyil. Çin, Rusiya, İran, Pakistan, Filippin, Vyetnam və s. olduğu məkanda Yeni Azərbaycan Partiyası da təmsil olunur. Hakim Partiya Avropa Xalq Partiyalarının qurumunda təmsil olunur və orada iştirak edir. Ayrı-ayrılıqda YAP-ın böyük dövlətlərdə iqtidar partiyalarının (Türkiyə, Rusiya, Mərkəzi Asiya dövlətləri, Çin Kommunist Partiyası) əksəriyyəti ilə münasibəti var. Bu yaxınlarda Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çin Xalq Respublikasında səfərdə idi. Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Tacikistanın partiyaları ilə əlaqələrimiz mövcuddur. Eləcə də Ukraynadakı, Belarusiyadakı və s. siyasi partiyalarla geniş əməkdaşlığımız vardır. YAP hərtərəfli şəkildə partiya olaraq beynəlxalq əlaqələrə çox üstünlük verir.

# Ermənistanda MÜƏMMALI İSTEFALAR




***Ermənistan hökumətindəki kütləvi istefalar diqqəti cəlb etməyə bilməz. Ermənistana məxsus bəzi mətbuat səhifələrində qeyd olunur ki, erməni baş nazir Nikol Paşinyanın bir neçə yüksək vəzifəli şəxsi tənqid etməsi onların istefası ilə nəticələnib. Bəzi mənbələrdə isə hətta vurğulanır ki, Ermənistanın baş naziri özü bir neçə yüksək rütbəli məmurdan istefa verməsini istəyib və bununla bağlı xəbəri onun özü də təsdiqləyib. Təbii ki, istefaların, yaxud istefa istənilməsinin heç də səbəbsiz olmadığı bir reallıqdır. Amma Paşinyan özü belə bunun nə ilə əlaqədar olduğunu izah etməyib və belə görünür ki, heç izah etmək fikrində də deyil.***

## Cidanı çuvalda gizlətmək olmadığı kimi, istefa dalğasının səbəblərini də Paşinyan və onun komandası qətiyyən gizlədə bilməyəcək

"Hörmətli həmvətənlər, mətbuatda və sosial şəbəkələrdə gedən kütləvi müzakirələri nəzərə alaraq, nəzərinizə çatdırmağı zəruri hesab edirəm ki, bir sıra yüksək vəzifəli məmurun tutduqları vəzifələrdən uzaqlaşdırılmasını xahiş etmişəm. Belə bir müraciətin edilməsinin səbəbləri şəxsi deyil, açıq şəkildə söylədiyim kimi, sistemlidir", - deyə Paşinyan bildirib. Ermənistanın baş naziri həmçinin qeyd edib ki, adları çəkilən məmurların guya dövlətçiliyin inkişafında xidmətlərini də inkar edə bilməz və hər kəsə verdiyi töhfəyə, eləcə də onun bu xahişini başa düşdüyünə görə təşəkkür də edib. Amma bununla belə Nikol Paşinyan, qeyd olunduğu kimi, bunun nə ilə bağlı olduğunu, nə səbəbə olduğu bildirməyib və yüksək rütbəli məmurların istefası "istəyi", "xahişi", yaxud da tələbi ilə əlaqədar məsələnin izahını da verməyib.

Yəqin ki, nə Ermənistanın infrastruktur naziri Qmel Sanosyan, nə Dövlət Gəlirləri Komitəsinin rəhbəri Rüstəm Badasyan, nə daxili işlər naziri Vahe Kazaryan və nə də İstintaq Komitəsinin rəhbəri Argişti Kərəmyan istefa ərizəsini səbəbsiz şəkildə yazmayıb. Hər halda, onların da fikri yaxın zamanda bəlli olacaq. Daha dəqiq desək, hansı səbəbə görə istefa verdikləri barədə, istər sosial mediada, yəni, sosial şəbəkələrin Ermənistana məxsus seqmentində, istərsə də həmin ölkənin mətbuat səhifələrində müvafiq xəbərlər ortaya çıxacaq. Bir sözlə, cidanı çuvalda gizlətmək mümkün olmadığı kimi, Ermənistanda baş verənləri də, daha doğrusu, həmin ölkədə istefa dalğasını da başda elə erməni baş nazir özü olmaqla, həmin ölkə hakimiyyəti qətiyyən gizlədə bilməyəcək, baxmayaraq ki, bununla bağlı "nə isə demək" fikrində deyil.

## İstefalarla bağlı fərqli fikirlər, rəylər, iddialar və hətta ciddi ittihamlar da var

Paşinyan bir tərəfdən məmurlara təşəkkür edir, digər tərəfdən də istefasını xahiş edir və bunu erməni cəmiyyətinin özü belə başa düşə bilmir. Çünki istefasını xahiş etdiyi məmurların böyük xidmətlərini vurğuladıqdan sonra onların vəzifəsindən kənarlaşmasının vacib hesab edilməsinin səbəbini belə müəyyən etməkdə erməni cəmiyyəti özü də çətinlik çəkir. Bunu başa düşməmək həqiqətən də məntiqidir, çünki bu qədər "tərif yağdırmaq" və ardınca da istefa "istəmək", yüksək rütbəli məmurdan istefa verməsini "xahiş etmək", ya da "tələb etmək" qətiyyən bir araya sığmır. Bəs onda məsələnin kökündə nə dayana bilər və əsl səbəb nədən ibarət olar, deyə düşünən ermənilərin bir çoxu hələ də "baş sındırır" və haylar özləri də nə isə başa düşməyə çalışırlar. Təbii ki, fərqli fikirlər, rəylər, iddialar və hətta ittihamlar da var və bunlar da qətiyyən təsadüfi deyil, müvafiq əsasa görədir. "Od olmasa tüstü çıxmaz", zərb məsəlində deyildiyi kimi, hansısa şübhələr və əsaslar var ki, belə fərqli yanaşmalar da müşahidə edilir.

Bəzi erməni əsilli siyasətçilər, politoloqlar, hətta deputatların bəziləri belə hesab edirlər ki, Paşinyan bu yolla özünün yox dərəcəsində olan reytinqini yüksəltmək niyyəti güdür. Çox güman ki, o, yüksək rütbəli məmurları görüşə çağırmaqla və görüş zamanı onlardan istefa ərizəsi yazmalarını "istəməklə", yaxud, "tələb etməklə" özünün məhz bir çox strukturlara, ələlxüsus da güc trukturlarına təsir imkanlarının olduğunu, rıçaqların hələ də əlində olduğunu göstərmək istəyir. Məmurlara qondarma "tərif" yağdırması və onların "böyük xidmətlər" göstərdiklərini deməsi isə həmin istefaların əsl səbəbini gizlətmək üçün Paşinyanın növbəti komuflyajı hesab olunur. Erməni əsilli siyasətçilərin bəziləri isə açıq şəkildə bildirirlər ki, USAİD tərəfindən ayrılan vəsaitlərin hara xərcləndiyini, daha dəqiq desək, mənimsənilməsini gizlətmək üçün hansısa məmurlar Paşinyan tərədindən meydandan uzaqlaşdırılırlar. Yəni, mənimsənilən vəsaitləri ört-basdır etmək üçün həmin istefaların "istənildiyi" qənaətində olan siyasətçilər də var. Həmin siyasətçilər artıq iddia deyil, ciddi ittihamlarla çıxış etmiş olurlar və görünür elə Nikolun "komuflyaja ehtiyac duyması" da buna görə imiş.

## İstefalar artan daxili gərginlikdən, idarəetmədəki boşluqlardan, yeni siyasi böhrandan xəbər verir

Bir xatırlatma etmək yerinə düşərdi ki, Nikol Paşinyan hökumətin son iclaslarında güc strukturlarının fəaliyyətindən narazı olduğunu gizlətməyib və onları sərt tənqid də edib. Hətta erməni baş nazir hökumət üzvlərinə qarşı sərt tonda iradlar da səsləndirib və bu məqam özü də təsadüfi hesab olunmur. Belə bəlli olur ki, güc strukturlarının rəhbərlərinin onun göstərişlərinə uyğun fəaliyyət göstərməməsindən Paşinyan lap əvvəldən narazı imiş. Hazırda Ermənistan ictimaiyyəti istefaların daha çox məhz bununla əlaqədar olduğu qənaətindədir. Bir sözlə, hayların əksəriyyəti elə hesab edirlər ki, nə qədər "tərif" yağdırmasına, nə qədər "təşəkkür" etməsinə baxmayaraq, Paşinyan sadəcə olaraq "xoşuna gəlməyən" məmurları öz ətrafında görmək istəməyib və "təmizləmə işləri" də buna görə aparılıb.

Məsələ burasındadır ki, hazırkı Ermənistan hakimiyyətinin özünə rəqib hesab etdiyi qüvvələr, yəni, müxalif qüvvələr hadisələri Nikol Paşinyanın və onun komandasının zəifliyi kimi qələmə verir. Sözsüz ki, erməni baş nazirin "rəqiblərinin" məsələni bu şəkildə qələmə verməyə çalışması başadüşüləndir. Çünki istənilən vəziyyətdən onların sui istifadə cəhdləri də təkzib edilə bilməz. İndi erməni müxalifətçilər də ciddi cəhdlə çalışırlar ki, məhz bu istefa dalğasını hökumətin idarəetmə böhranı kimi cəmiyyətə rəqdim etsinlər. Onlar hətta iddia edirlər ki, ölkədəki sosial-iqtisadi və təhlükəsizlik problemlərini həll etmək əvəzinə, güc strukturlarının rəhbərlərini istefaya göndərən Paşinyan sadəcə olaraq diqqəti yayındırmağa çalışır. Doğrudur, müxalifət öz çıxarı, öz xeyri üçün əldən-ayaqdan gedir, istefa dalğasından yararlanmaq istəyini də gizlədə bilmir və bu baxımdan bütün məsələlərdə də problemin məhz Paşinyanda, onun hakimiyyət komandasında olduğunu göstərmək üçün münbir şərait yarandığını zənn edir. Bununla belə bəzi müstəqil ekspertlər özləri də açıq şəkildə bildirirlər ki, Paşinyanın bu şəkildə istefa "istəməsi", yüksək rütbəli məmurlardan istefa verməlֹərini "xahiş etməsi", yaxud da "tələb etməsi" Ermənistan hökumətində artan daxili gərginlikdən və idarəetmədəki boşluqlardan qaynaqlanır. İndi erməni cəmiyyətində belə bir fikir formalaşıb ki, hökumət daxilində ciddi dəyişikliklərin olması yeni siyasi böhran deməkdir və bu məqamda məsələnin kökündə nəyin olduğu barədə rəsmi açıqlamaların olmaması da vəziyyəti hazırki haldan daha da qəlizləşdirir...

***İnam Hacıyev***

---



MƏTANƏT

## Yox, vermə, almayacam...

***Allahın adlarından biridir, salam. Böyüklərimiz həmişə deyərdi ki, nə qədər çox salam verirsənsə, Alahın adını bir o qədər anmış olursan. Odur ki, əvvəlki illərdə insanlar salamlaşmanı sevir və böyük saygı hesab edirdilər. Xüsusilə də rayon yerlərində qarşılaşan insanların hər biri salamlaşmadan keçməzdi. Bu gün böyük şəhərlərdə yaşayan insanların əksəriyyəti həmin rayonlardan bu şəhərlərə gəldiyindən onlar salamlaşmanın nə demək olduğunu da yaxşı bilirlər.***

Çox təəssüf ki, müasir dövrdə salamlaşmaq mədəniyyəti də digər əhəmiyyətli məsələlər kimi müasir insanlar tərəfindən artıq tarixin arxivinə göndərilməkdədir. Böyük Məhəmməd Füzuli sanki, "salam verdim, rüşvət deyildir deyə, almadılar" kəlamını bu gün üçün qələmə alıbmış. İnsanlar sanki salamın maddi deyil, hava olduğunu düşünərək onu boş bir şey hesab edir və verilən salamın alınmasını məsləhət bilmirlər. Bunu qonşuluqda da, iş yerində də, ümumiyyətlə, salam verməli olduğumuz hər yerdə müşahidə edirik.

Böyük şəhərlərdə insanlar bir-birini tanımadığından, əlbəttə, küçədə hər kəsə salam vermək olmur. Lakin qonşuluqda, iş yerində, kollektivdə, hər hansı təşkilata daxil olduqda bir-biri ilə qarşılaşan hər kəs təbii ki, salamlaşmalıdır. Lakin gəlin, görək, liftə daxil olur, salam verirsən, burada kiminsə səsi çıxırmı? Adam, vallah, utanır ki, salam verdim, bunlar yəqin məni anormal hesab edib salamımı almadılar. Və yaxud da iş yerində elə adamlar var ki, salam verirsən, səsi çıxmır. Sanki buna borcun varmış, salam verdin həmin borc yadına düşdü, acıqlandı ki, salamını özünə saxla, borcunu qaytar.

Beləliklə, milli-mənəvi dəyərlər toplumuzdan hər gün bir sətir silinib gedir. Biz artıq özümüzdən başqa hər kəsə oxşamağa başlamışıq. Həyatımız, dəyərlərimiz, davranışığımız hər gün bir qədər "müasirləşir". Bu "müasirlik", bax, belə insani keyfiyyətlərimizə də təsirsiz ötmür.

Salam verəndə, qarşındakı insanın "salam" deyə cavab verməsi nə qədər əziyyətlidir, nə qədər dil-ağıza yük düşür, bax, bunu hesablamaq bir qədər çətin gəlir insana. Odur ki, insanların bu davranışından sadəcə "salam vermə, almayacam" qənaətinə gəlmək olur. Lakin şəxsən mən həmişə salam verəcəm. Çünki bu, həm mədəniyyət, həm etiket qaydası, həm də Allahın adını anmaqdır.

Bu gün Beynəlxalq Salamlaşma Günüdür. Bax, məhz bu gün bu barədə yazmaq, ürəyimi boşaltmaq istədim. İstədim biləm ki, mənim salamımı almırlar, yoxsa, hamıda belədir? Lakin mən bu qənaətdəyəm ki, min dəfə də bu fikrə düşən olsa ki, "yox, vermə, almayacam", yenə də salam verək, sabahınız, axşamınız, hərvaxtınız xeyir, deyək. Bəlkə bir gün bu sözlərin qarşılığını eşitmiş olarıq. Odur ki, salam, əziz oxucular və hər kəs, hərvaxtınız xeyir olsun.

# G20 toplandı, amma...

## Rio-de-Janeyroda keçirilən G20 sammitində iştirakçılar nə müzakirə ediblər?



Noyabrın 18-19-da Rio-de-Janeyroda keçirilən G20 sammitində Rusiyanı xarici işlər naziri Sergey Lavrov təmsil edib. Prezident Luiz İnasio Lula da Silvanın başçılıq etdiyi Braziliya hakimiyyəti öz həmkarlarının diqqətini yoxsulluq, iqlim və iqtisadi inkişaf problemlərinə yönəltməyə çalışıb. Lakin Yaxın Şərq və Ukrayna böhranları fonunda geosiyasi müzakirələrdən yayınmağın mümkün olmadığı ortaya çıxıb. G20 sammiti ilk gündən dramatik bir notla başlayıb. "Mən 2008-ci il maliyyə böhranından sonra Vaşinqtonda G20 liderlərinin ilk görüşündə iştirak etdim. 16 il sonra mən təəssüflə etiraf edirəm ki, dünyada vəziyyət daha da pisləşib", - Luiz İnasio Lula da Silva açılış nitqində deyib. Və o, bu qiymətləndirməni dərhal izah etdi: İkinci Dünya Müharibəsindən bəri rekord sayda məcburi köçkünlər və silahlı münaqişələr, ekstremal hava hadisələri, artan sosial, irqi və gender bərabərsizliyi - bütün bunlar, Braziliya liderinin fikrincə, hazırkı reallığı xarakterizə edir. Lula da Silva əmindir ki, "ümumi faciənin əsas simvolları aclıq və yoxsulluqdur.

Bu hadisələr, onun fikrincə, ilk növbədə yanlış siyasi qərarların nəticəsidir. "Bu masada iştirak edənlər bəşəriyyəti utandıran bu bəlanın aradan qaldırılması kimi təcili vəzifəni həll etməlidirlər", deyə Braziliya Prezidenti vəziyyətlə bağlı fikirlərini bölüşüb. Braziliyanın G20-yə sədrlik səylərinin kulminasiyası bazar ertəsi elan edilən Aclıq və Yoxsulluqla Mübarizə üzrə Qlobal Alyansın yaradılması olub.

Təşəbbüsün məqsədi iddialıdır: 2030-cu ilə qədər aclığın aradan qaldırılması. Alyansın ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində təcrübə mübadiləsinə və müvafiq tədbirlərin əlaqələndirilməsinə imkan verəcəyi gözlənilir. Lula da Silva, "Bu, bizim ən böyük mirasımız olacaq", deyib. Braziliyanın sədrliyi yekun bəyannamədə qeyd olunan digər nailiyyətlərlə də yadda qalıb. Məsələn, o, İqlim Dəyişikliyinə qarşı Qlobal Səfərbərlik İşçi Qrupuna və Braziliyanın qlobal idarəetmədə islahatlara dair təşəbbüsünə diqqət yetirib.

### Bu arada...

Bəyannamənin hazırlanması mübahisəsiz ötüşməyib. Hələ sammit başlamazdan əvvəl məlum oldu ki, G20-yə üzv olan ölkələrin qlobal problemlərin hansı əsaslarla həll edilməli olduğu və ümumilikdə nə problem hesab edilməli olduğu barədə fərqli fikirlər var. Rio-de-Janeyroda keçirilən görüşlər ərəfəsində "Financial Times" Braziliyadakı mənbəyə istinadən yazıb ki, Argentinanın liberal prezident Xavyer Mayli başda olmaqla hakimiyyət orqanları vergi məsələlərində fikir ayrılığına görə bəyannamənin qəbulunu əngəlləməklə hədələyiblər. Adı açıqlanmayan Braziliya rəsmisi Buenos-Ayresi zirvəni "köhnə və yeni qüvvələr arasında mübarizəyə" çevirməkdə və "əvvəllər razılığın olduğu yerlərdə problemlər yaratmaqda" ittiham edib.

Argentinalılar isə bəyannamənin qəbuluna mane olmadılar, lakin özləri bir sıra bəyanatları dəstəkləmədikləri barədə xəbərdarlıqla onu imzaladılar. Prezidentin mətbuat xidmətinin məlumatına görə, ölkə hakimiyyətinin razılaşmadığı məqamlar arasında sosial şəbəkələrin tənzimlənməsi, qlobal idarəçilik institutlarının islahatı, habelə dövlətin bununla mübarizəyə müdaxilə etməli olduğu "özünün özü" də var.

### Bəyannamədə Ukrayna münaqişəsi ətrafında mübahisələr

Nəticədə, sənədin 9-cu bəndində qeyd edilir: "Birbaşa Ukraynadakı müharibəyə gəldikdə, Yeni Dehlidə (2023-cü il G20 sammitində) aparılan müzakirələrə istinad edərək, biz insanların iztirablarının təsirini və qlobal ərzaq və enerji təhlükəsizliyi, təchizat zəncirləri, makro-maliyyə sabitliyi, inflyasiya və iqtisadi artımla bağlı müharibə kimi əlavə mənfi nəticələri vurğulayırıq. G20 iştirakçıları həmçinin "hərtərəfli, ədalətli və davamlı sülhün bərqərar olmasına töhfə verən və xalqlar arasında dinc, dostluq və mehriban qonşuluq münasibətlərinin təşviqi naminə BMT Nizamnaməsinin bütün məqsəd və prinsiplərinə uyğun gələn bütün müvafiq və konstruktiv təşəbbüsləri alqışlayırlar. Bununla belə, 8-ci bənd iki dəfə çox yer tutub və "Qəzza zolağındakı fəlakətli humanitar vəziyyətə və Livandakı eskalasiyaya" həsr olunub.

Rusiya Xarici İşlər Nazirliyi bundan əvvəl sammitin gündəmini siyasiləşdirməməyə və diqqəti iqtisadi məsələlərə yönəltməyə çağırıb. Rio-de-Janeyroda keçirilən yekun mətbuat konfransında Rusiyanın xarici işlər naziri Sergey Lavrov bəyannamənin yekun variantının necə razılaşdırıldığını bildirib. Onun fikrincə, iqtisadiyyatla yalnız dolayı əlaqəsi olan bəndin əlavə edilməsi qərarı Qərbin sammitin gündəmini "Ukraynalaşdırmaq" cəhdlərinə alternativdir. "Həm biz, həm də inkişaf etməkdə olan ölkələrdən olan həmkarlarımız mətnin istənilən münaqişələrə, hazırda dünyada davam edən hər bir münaqişənin və hər şeydən əvvəl Yaxın Şərqdəki münaqişənin həlli zərurətinə həsr olunmasında təkid etdik", - deyə təşkilatın rəhbəri bildirib.

Lavrovun sözlərinə görə, Qərb könülsüz şəkildə bu mətni müzakirə etməyə razılaşdı, lakin çox yaxşı başa düşdü ki, bunsuz münaqişələrlə bağlı heç bir bölmə ola bilməz. "Qərb tərəfindən bu paraqrafı (Yaxın Şərqdəki münaqişələr haqqında) Ukraynadan sonra Qəzza əhalisinin faciəvi, fəlakətli vəziyyətini vurğulayan geniş, qiymətləndirmələrlə dolu yerləşdirməyə cəhdlər olub", - diplomat bildirib: "Amma burada belə manipulyasiyanın, hoqqabazlığın rədd edilməsini vurğulamağa ehtiyac yox idi, çünki Qlobal Cənub ölkələri G20-nin ilk növbədə faciəyə diqqət yetirməsinin əhəmiyyətini azaltmaqdan qəti şəkildə imtina etdilər. Qəzza zolağı".

Nəticədə, Lavrovun izah etdiyi kimi, Rusiya tərəfi bəndin Ukrayna ilə bağlı mətni ilə razılaşıb, "çünki orada əsas şey sülhlə bağlı real əsaslarla vicdanlı və ağlabatan söhbətə çağırışdır". Maraqlıdır ki, məhz G20 sammitində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, bəzi məlumatlara görə, Rusiya-Ukrayna münaqişəsinin dondurulması planını təqdim etməyi planlaşdırırdı. Bu barədə noyabrın 18-də məlumatlı mənbələrə istinadən Bloomberg məlumat yayıb. Bildirilib ki, hazırlanmış təşəbbüsün mahiyyəti hazırkı cəbhə xətti boyunca münaqişənin dondurulması olub.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Türkiyə tərəfinin hər hansı rəsmi açıqlamalarından əvvəl belə qeyd edib ki, Moskva üçün bu variant "apriori qəbuledilməzdir". Bunun ardınca Türkiyə prezident administrasiyasının dezinformasiyaya qarşı mübarizə mərkəzi Ankaranın sammitdə hansısa sülh planı təqdim etməyə hazırlaşdığına dair iddiaları təkzib edib.

Bu arada Sergey Lavrovun Rio-de-Janeyroda mətbuat konfransı Ukrayna Silahlı Qüvvələrinin Amerikanın ATACMS ballistik raketləri ilə Rusiyanın dərinliklərinə zərbələr endirdiyi gün baş tutub. Rus diplomatın sözlərinə görə, Amerikanın uzaqmənzilli silahlarının Bryansk bölgəsinə hücumu "Qərbin münaqişəni gərginləşdirmək istədiyinə işarədir". "Ukrayna ərazisindən Rusiya ərazisinə qədər uzaqmənzilli raketlərdən istifadə edilərsə, bu, onların Amerika hərbi ekspertləri tərəfindən idarə olunduğu anlamına gələcək və biz bunu Qərbin Rusiya ilə müharibəsinin keyfiyyətcə yeni mərhələsi kimi qəbul edəcəyik və onlara cavab verəcəyik", - Lavrov fikrini yekunlaşdırıb.

**V.VƏLİYEV**

GÜNDƏM

# Vətəndaşların yüksələn sosial rifahı

Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli və dayanıqlı sosial-iqtisadi inkişafının stimullaşdırılması ilə bağlı imzaladığı fərman və sərəncamlar, təsdiqlədiyi dövlət proqramları əhalilin sosial rifahının yüksəlməsinə töhfə verib. Ölkə rəhbərinin məqsədyönlü islahatları respublikada sosial-iqtisadi sabitliyin davam etməsinə, qeyri-neft sənayesində, kənd təsərrüfatında artım əldə olunmasına imkan verib. Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır. Bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.





Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı dövlətin yeni sosial paketinin işə başladığını təsdiqləmiş oldu. İmzalanan Sənəd bir daha təsdiq etmiş oldu ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir.

## HƏYATA KEÇİRİLƏN İSLAHATLARLA İNKİŞAF MEXANİZMİNİN DAHA DA ÇEVİKLİYİNƏ NAİL OLUNUB

Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Görülən işlər deməyə əsas verir ki, Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Müstəqil Azərbaycanın yürütdüyü siyasət dövlətimizi etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

## İNSAN RİFAHININ TƏMİNATI PRİNSİPİ

Yeni reallıqlar yaratmış müstəqil Azərbaycan özünün inkişaf dövrünü yaşayır. Zəfər qazanmış Azərbaycanın hər bir sahəsində də onu uğurlar müşayiət edir. İqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı, aparılan davamlı iqtisadi islahatlar sosial sahədə əhəmiyyətli dərəcədə uğurlara səbəb olub. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır. Bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir.

2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev andiçmə mərasimində demişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm". 21 ildən artıq bir zamanda deyilən bu fikirlər uğurla reallaşdı. İqtisadi və hərbi gücünü daim artıran, qarşısına qoyduğu bütün strateji hədəflərə doğru inamla irəliləyən, bu yolda böyük nailiyyətlərə, qələbələrə imza atan Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, qüdrətli, lider dövlətinə çevrildi.

Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Aparılan islahatlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyəti, o cümlədən müharibə əlilləri və şəhid ailələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini, məhz müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Cənab Prezidentin göstərişi ilə şəhid ailələri mənzillə təmin olunur. Azərbaycan Prezidentinin 2014-cü il 20 iyun tarixli Sərəncamı müharibə əlilləri və şəhid ailələrinin dövlət tərəfindən mənzillə təminatı işlərinin sürətlənməsinə şərait yaradıb. Dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib.

Bütün bunlar əlbəttə ki, Azərbaycanın sosialyönümlü ölkə olduğunun isbatıdır. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı və mənafeyi dayanır.

## "SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI DAYANIR"

Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Aparılan islahatlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Bu bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Sözügedən Sərəncama əsasən, minimum əməkhaqqı 345 manata çatdırıldı və Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı. Sərəncamla minimum aylıq əməkhaqqı 1 yanvar 2023-cü ildən 15 faiz artırılaraq 300 manatdan 345 manata çatdırıldı. Ötən illər aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. İqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması Cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir. Azərbaycan öz daxili siyasətində insan amilinə xüsusi diqqət yetirməklə həm iqtisadi, həm sosial, həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Cənab Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Bu, demək olar ki, müasir Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda ilk olaraq, məhz insanları düşünür. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən Prezident İlham Əliyev əməli fəaliyyətində bunu göstərir. Əlbəttə, Azərbaycan dövləti, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır, onun firavan yaşayışını, təhlükəsiz həyatını təmin etmək gücündədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

“Elektron İcra” informasiya sistemi (EİS) müasir dövrdə dövlət orqanlarının hüquqi icraatları daha sürətli, şəffaf və effektiv şəkildə idarə etmələrini təmin edən mühüm texnoloji yeniliklərdən biridir. Bu sistemin yaradılması həm dövlət idarəçiliyinin rəqəmsal transformasiyası, həm də hüquqi icraatların optimallaşdırılması baxımından əhəmiyyətlidir.

# ELEKTRON İCRA:

## Hüquqi prosesləri sürətləndirən rəqəmsal inqilab

### ”Elektron İcra” informasiya sisteminin yaradılması tarixi: “Elektron İcra”

informasiya sistemi 21-ci əsrin əvvəllərində dünyanın bir çox inkişaf etmiş ölkələrində dövlət xidmətlərinin rəqəmsallaşdırılması və hüquqi icra sahəsinin müasirləşdirilməsi məqsədilə yaradılmağa başlanmışdır. Azərbaycan da bu qlobal tendensiyaya qoşularaqhüquqi icraatların rəqəmsal şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə ”Elektron İcra” informasiya sistemini inkişaf etdirməyə qərar verdi.

Azərbaycan Respublikasında ”Elektron İcra” informasiya sistemi (EİS) ilə bağlı ilkin hazırlıq işlərinə 2010-cu illərin ortalarında başlanmışdır. Bu dövrdə müxtəlif dövlət orqanları arasında əməkdaşlıq yaradılaraq müvafiq texnoloji infrastrukturların qurulması üçün tədbirlər görülmüşdür. Dövlət başçısının rəqəmsal dövlət idarəetməsi və informasiya texnologiyalarının inkişafına dair verdiyi tövsiyələr və sərəncamlar bu prosesin sürətlənməsinə və genişlənməsinə zəmin yaratmışdır.

”Elektron İcra” informasiya sisteminin inkişafı çərçivəsində ilk olaraq hüquqi icraatların avtomatlaşdırılmasına, məhkəmə qərarlarının elektron mühitdə qəbul edilməsi və icra edilməsi üçün lazımi hüquqi bazanın yaradılmasınabaşlanmışdır. Bu addımlar eyni zamandasistemin gələcək inkişafının və genişlənməsinin təməlini qoymuşdur.

”Elektron İcra” informasiya sisteminin tətbiqinin başlanması:”Elektron İcra” informasiya sisteminin tətbiqi 2017-ci ildə rəsmi olaraq başlanmışdır. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi altında həyata keçirilən bu layihəhüquqi icraatların səmərəli və şəffaf şəkildə həyata keçirilməsi məqsədini güdür. Məhkəmə qərarlarının icrası və digər hüquqi sənədlərin rəqəmsal olaraq izlənməsi üçün nəzərdə tutulan sistemin tətbiqi həyata keçirilmiş, 2024-cü ilin birinci yarımilindən başlayaraq Ədliyyə Nazirliyi tərəfindən xüsusi nəzarətə götürülmüş, belə ki, müvafiq tədbirlər nəticəsində cari nəaliyyətlər əldə edilmişdir. ”Elektron İcra” informasiya sistemi məhkəmə qərarlarının sürətli icrası, icra proseslərinin şəffaflığının təmin olunması və vətəndaşların hüquqlarının daha tez müdafiə olunması kimi əsas məqsədlərlə fəaliyyətə başlamışdır. Bu sistemin tətbiqi ilə əlaqədar olaraq, müxtəlif hüquqi orqanlar arasında məlumat mübadiləsi və əməkdaşlıq imkanları genişlənmişdir. Sistem hüquqi icraatların yerinə yetirilməsi prosesinin tamamilə rəqəmsallaşdırılması ilə dövlət xidmətlərinin müasir tələblərə uyğun şəkildə həyata keçirilməsini təmin etmişdir.

”Elektron İcra” informasiya sisteminin mahiyyəti:”Elektron İcra” informasiya sistemi dövlət orqanlarının və icra hakimiyyətlərinin icra proseslərini elektron formada izləmələrini və idarə etmələrini təmin edən bir platformadır. Bu sistem, əhalinin hüquqlarının təmin olunmasına, mülkiyyətin qorunmasına və icra proseslərinin şəffaflığının artırılmasına yönəlmişdir. Sistemin tətbiqi həmçinin qanun pozuntuları ilə bağlı tədbirlərin sürətləndirilməsi və məhkəmələrdən və digər orqanlardan verilən qərarların icrasının səmərəliliyinin artırılması məqsədini güdür.

”Elektron İcra” informasiya sistemi və hüquqi icraatın rəqəmsaltransformasiyası:”Elektron İcra” informasiya sistemi ənənəvi icra metodlarının yerini alaraq, məhkəmə qərarlarının, inzibati tədbirlərin və digər hüquqi sənədlərin avtomatlaşdırılmış şəkildə işlənməsini təmin edən bir rəqəmsal platformadır. Bu sistem əsasən hüquqi sənədlərin elektron formada təqdim edilməsi, icra proseslərinin onlayn izlənməsi və nəticələrin real vaxtda qeydiyyatını təmin edir. EİS-in əsas məqsədi hüquqi icraatların sürətləndirilməsi, şəffaflığın artırılması və bürokratik maneələrin aradan qaldırılmasıdır.







Bu rəqəmsal transformasiya hüquqi icraatların daha effektiv idarə olunmasını təmin edərək vətəndaşların və hüquqi şəxslərin hüquqlarının daha sürətli qorunmasına imkan verir. EİS həmçinin icraçı orqanların iş yükünü azaldır və vətəndaşların hüquqi proseslərlə əlaqədar məlumatları daha asan əldə etmələrini təmin edir.

EİS-intətbiqinin hüquqi və dövlət idarəetmə sistemindəki üstünlükləri, habelə quruluşu və əsas funksiyaları:”Elektron İcra” informasiya sistemi hüquqi icra proseslərini rəqəmsal mühitdə təşkil etməyə imkan verən bir platformadır. Bu sistemin tətbiqi ilə bağlı əsas məqsəd məhkəmə və digər hüquqi orqanlar tərəfindən verilən qərarların yerinə yetirilməsini daha şəffaf, sürətli və az xərcli şəkildə həyata keçirməkdir. EİS-in əsas funksiyaları bunlardır:

**1.** İcra qərarlarının icrası: Sistem məhkəmə və digər hüquqi orqanlar tərəfindən verilmiş icra qərarlarının operativ və düzgün şəkildə yerinə yetirilməsini təmin edir. Bu, xüsusiləicraçılar, dövlət orqanları və vətəndaşlar üçün böyük əhəmiyyət kəsb edir, çünki məhkəmə qərarlarının icrası ənənəvi üsullarla uzun müddətə çəkə bilərdi. Elektron sistemlər, icra proseslərinin nəzarətini və izlənməsiniasanlaşdıraraq bu müddəti qısaldır.

**2.** İcra proseslərinin avtomatlaşdırılması: İcra prosesi həm fiziki, həm də hüquqi baxımdan çoxsaylı mərhələlərdən ibarət olur. EİS bu mərhələlərin avtomatlaşdırılmasını və hüquqi sənədlərin elektron formadakı təhlilini təmin edir. Nəticədə hüquqi prosedurların iş yükü azalır və səhvlərin qarşısı alınır.

**3.** İnformasiya və məlumatın şəffaflığı: Elektron sistemin istifadəsi icra proseslərinin hər bir mərhələsinin elektron şəkildə qeydə alınmasına və istənilən vaxt izlənməsinə şərait yaradır. Bu şəffaflıq, həm vətəndaşların, həm də dövlət orqanlarının qarşılıqlı etimadını artırır və məmur korrupsiyasının qarşısını almağa kömək edir.

**4.** Hüquqi sənədlərin elektron qəbul edilməsi və göndərilməsi: Elektron sistem hüquqi sənədlərin - məhkəmə qərarlarının, müraciətlərin və digər müvafiq sənədlərin - onlayn formada qəbul edilməsi və göndərilməsini təmin edir. Bu, həm vaxt, həm də resurs itkisinin qarşısını alır.

**5.** Qeydlərin və məlumatların mərkəzləşdirilməsi: Sistem bütün hüquqi məlumatların və sənədlərin mərkəzləşdirilmiş şəkildə saxlanmasını təmin edir. Bu, məlumatların yoxlanması və təhlilini asanlaşdırır, eyni zamanda icra prosesləri ilə bağlı statistik məlumatların toplanmasına imkan yaradır.

”Elektron İcra” informasiya sisteminin tətbiqinin faydaları:”Elektron İcra” informasiya sistemi hüquqi və dövlət idarəetmə sistemlərinə bir sıra müsbət təsirlər göstərir. Bu təsirləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

**1.** İcra proseslərinin sürətləndirilməsi və effektivliyi: Elektron sistemlər ənənəvi kağız sənəd dövriyyəsi və fiziki təqdimatlar yerinə hüquqi sənədlərin dərhal işlənməsi və göndərilməsi ilə iş proseslərini sürətləndirir. Beləliklə məhkəmə qərarlarının icrasına sərf olunan vaxtın azalması təmin olunur. Eyni zamanda, əməliyyatların düzgünlüyü və yerinə yetirilməsi daha səmərəli olur.

**2.** İctimai xidmətlərin keyfiyyətinin yüksəldilməsi: Elektron xidmətlərin tətbiqi vətəndaşların dövlət orqanlarına daha asan müraciət etmələrini təmin edir. Vətəndaşlar icra proseslərinin gedişatını izləyə bilər, sənədləri və qərarları elektron şəkildə əldə edə bilərlər. Bu şəffaflıq ictimai xidmətlərin keyfiyyətini və vətəndaş məmnuniyyətini artırır.

**3.** Korrupsiyanın qarşısının alınması: Elektron mühit dövlət orqanları ilə vətəndaşlar arasındakı əlaqələri standartlaşdırır və hər iki tərəfin fəaliyyətini elektron yolla izləməyə imkan verir. Bunun nəticəsində məmurların qanunsuz hərəkətlərinin və korrupsiya halların aşkar edilməsi asanlaşır.

**4.** Resursların effektiv istifadəsi:Rəqəmsal mühitin tətbiqi kağız sənədlərə və fiziki arxivlərə olan tələbatı azaldır, bu isə dövlətin resurslarının səmərəli istifadəsini təmin edir. Elektron sənədlərin saxlanması və mübadiləsi, həm də təbii sərvətlərin israfını azaldır.

**5.** İstifadəçi dostu və əlverişli olması: Elektron sistemlər istifadəçilər üçün asan interfeyslər təqdim edir. Vətəndaşlar və hüquqi şəxslər sistemə daxil olaraq istədikləri məlumatı əldə edə və müvafiq hüquqi proseslərdə iştirak edə bilərlər.

Elektron sistemlər vasitəsilə dövlət orqanları vətəndaşlarla daha yaxın əlaqə qurur. İctimai əlaqələrdəki bu yeni yanaşmavətəndaşların hüquqlarını daha asan şəkildə müdafiə etmələrini təmin edir. Həmçinin sistemlər vətəndaşların xidmətlərə çıxışını asanlaşdıraraq, bürokratik əngəlləri aradan qaldırır.

”Elektron İcra” informasiya sisteminin gələcək perspektivləri:”Elektron İcra” informasiya sisteminin tətbiqi Azərbaycan hüquq sistemində müsbət dəyişikliklərə səbəb olmuşdur və bu sistemin inkişafı davam edir. Ədliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları bu sistemin daha da təkmilləşdirilməsi və yeni funksiyalarla təmin olunması üzərində işlərini davam etdirirlər.

Gələcəkdə EİS-in daha genişmiqyaslı tətbiqi ilə hüquqi sahədə daha da böyük irəliləyişlər gözlənilir. Rəqəmsal icraatların daha çox avtomatlaşdırılması süni intellekt və məlumat analitikası kimi yeni texnologiyaların inteqrasiyası bu sistemin effektivliyini daha da artıracaqdır. Həmçinin digər dövlət xidmətləri ilə əlaqələndirilmiş daha inteqrasiya olunmuş sistemlərin yaradılması da planlaşdırılır.

Nəticə:”Elektron İcra” informasiya sistemi Azərbaycan Respublikasının hüquq mühafizə və dövlət idarəetmə sistemlərində rəqəmsal transformasiyanın həyata keçirilməsində mühüm rol oynamışdır. EİS-in tətbiqi hüquqi icraatların daha sürətli və şəffaf həyata keçirilməsi ilə yanaşı dövlətin şəffaflığını və vətəndaşların hüquqlarının təminatını da gücləndirmişdir. Bu sistemin tətbiqi ilə Azərbaycan beynəlxalq səviyyədə rəqəmsal idarəetmə sahəsində irəliləyişlər əldə etmişdir. Gələcəkdə sistemin daha da inkişaf etdirilməsi və bütün dövlət xidmətləri ilə inteqrasiya edilməsi ölkənin hüquq və idarəetmə sahələrində daha böyük müsbət dəyişikliklərə gətirib çıxaracaqdır.

***Məmməd MÜSƏLLİMOV***
***Bakı şəhəri, Pirallahı rayon İcra şöbəsinin icra məmuru***
***I dərəcəli ədliyyə qulluqçusu***

# Ailəvi yeməklər və onların ÖNƏMİ

***Bütün ailənin bir araya gəldiyi yeməklərin vacib və faydalı olduğu məlumdur. Yeni araşdırmalar göstərir ki, ailənin birlikdə yediyi yeməklər uşağa və ailəyə müsbət təsir göstərir. Ailə yeməkləri, xüsusən də uşaqlar üçün qidalanma, təhsil və ünsiyyətə böyük təsir göstərir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Ailə ilə birlikdə yeyilən yeməklərin uşaqlara müsbət təsiri aşağıdakılardır:

- Sağlam qidalanma;
- Zərərli vərdişlərdən çəkinmək;
- Daha yaxşı yemək vərdişləri.

Amerika Pediatriya Assosiasiyasının 2011-ci il nəşrlərinə görə, ailələri ilə birlikdə həftədə ən azı 3 dəfə yemək vərdişi olan uşaq və yeniyetmələrdə piylənməyə daha az rast gəlinir.

Tapıntılar aşağıdakılardır:

- artıq çəkidən 12% azalma,
- qeyri-sağlam qidalanma nisbətinin 20% azalması,
- Yemək pozğunluqlarının (məsələn, anoreksiya nervoza) 35% azalması,
- Sağlam qidalanma nisbətində 24% artım var.

2010-cu ilin mart ayında Harvardda nəşr olunan araşdırmanın nəticələrinə görə, hər gün birlikdə yemək vərdişi olan ailələr, kalsium, lif, dəmir, B6 və B12, C vitaminləri və ümumi yağ kimi əhəmiyyətli qidaları yüksək miqdarda istehlak edirlər.

Vaşinqtonda aparılan bir araşdırmaya görə, yemək zamanı televizoru söndürən ailələrin uşaqları daha çox meyvə və tərəvəz istehlak edir və daha az zərərli yemək yeyirlər. Televiziyanın təsiri və diqqətini yayındırmadan ailə daha sağlam qidalanır və qidaya daha çox diqqət yetirir. Çox televizora baxan ailələrdəki uşaqlar daha çox zərərli qida qəbul edirlər. Yemək yeyərkən televizora baxan ailələrin axşam yeməyində daha çox hazır yeməklər (pizza-hamburger) və zərərli qazlı içkilərindən istifadə etdiyi müşahidə olunub.







Ailə yeməkləri yalnız uşaqlar üçün faydalı qida təmin etmir, həm də zərərli maddələrdən istifadə ehtimalını azaldır. Beynəlxalq Maddə İstifadəsi Mərkəzinin (CASA) 2010-cu il hesabatına görə, uşaqları ilə daha tez-tez yemək yeyən ailələrin uşaqlarında siqaret və alkoqol kimi zərərli maddələrdən istifadə nisbətinin azaldığı göstərilib. Ailəsi ilə həftədə 3 dəfədən az yemək yeyən ailələrin uşaqlarında siqaret aludəçiliyi nisbəti iki qat artır.

Ailə yeməkləri valideynlərə iki çox mühüm şəkildə sağlam davranış nümunəsi vermək imkanı verir:

- Sağlam qidalardan istifadə etmək,
- Düzgün porsiya ölçüsündə yemək.

Uşaqlar çox vaxt valideynlərinin davranış və vərdişlərini modelləşdirirlər. Nahar vaxtı uşaqlara sağlam qidalanma haqqında məlumat vermək və onlara rəhbərlik etmək baxımından xüsusilə dəyərlidir. Xüsusilə yeniyetməlik çağında olan gənclər ailələri ilə birlikdə yedikləri yeməklər zamanı daha normal porsiyalar və daha sağlam qidalar qəbul edirlər.

Uşaqlar sağlam qidalanma üçün valideynlərini nümunə götürməyə meylli olsalar da, siz valideynlər olaraq öz öhdəliklərinizi yerinə yetirməlisiniz. Ailə üzvlərinin həftədə ən azı 3 şam yeməyində tam iştirak etməyini ailədə vərdiş halına gətirmək ailə daxilində ünsiyyətinizi də gücləndirəcək.

Həqiqətən də araşdırmalara görə, ailə üzvlərinin eyni süfrədə birlikdə yemək yeməsi daha sağlam qidalanma vərdişlərinin qazanılmasında böyük əhəmiyyət kəsb edir. Bu vəziyyət təkcə yemək vərdişlərinə müsbət təsir etmir. Bundan əlavə, ailədaxili ünsiyyət bacarıqlarının inkişafına və həmin ailədə böyüyən uşaqların sosial-emosional inkişafına və psixi vəziyyətinə də müsbət təsir göstərir.





Birlikdə süfrə arxasında oturmaq baş verdikdə, birlik ortaya çıxır. Fərdlər bu birlikdə olma halından qidalanırlar. Ailə birliyi ilə dəstək və güvən duyğuları da inkişaf edir və çiçəklənir.

Süfrədə öz yerini tutmaq və bütünün bir parçası olmaq uşaqların özünə inamının artmasına səbəb olur. Birlik və həmrəylik hissi ilə çətin anları aşmaq üçün lazım olan möhkəmlik hissini də artırır. Sağlam özünə inam özümüzlə bağlı inanclarımızın müsbət olmasına səbəb olur. Bu şəkildə özümüzü yaxşı hiss edirik, özümüz haqqında təsəvvürümüz müsbət şəkildə formalaşır. Bu yolla psixoloji dayanıqlıq da güclənir.

Ailəcək yemək yemək ünsiyyət bacarıqlarını gücləndirir. Süfrədə paylaşma sayəsində uşaqların ünsiyyət bacarıqlarında artım və müsbət inkişaf müşahidə edilir. Uşaqların bu birlik və həmrəylik hissi ilə öz hiss və düşüncələrini rahat şəkildə ifadə etmə şansı var. Özünü sağlam şəkildə ifadə edə bilən uşaq məktəb uğurlarını da artırar. Başqa sözlə desək, uşağınızla yemək yemək yalnız uşağınızın emosional inkişafına kömək etmir, həm də uşağınızın akademik performansına müsbət təsir göstərir.



Bu məsələnin sağlamlığımıza çoxlu töhfələri var. Ailə ilə yemək yemək yalnız sağlam qidalanma vərdişlərini gücləndirmir, həm də piylənmə riskinin azaldığını göstərir. Xüsusilə yeniyetməlik dövründə bədən qavrayışının müsbət inkişafına kömək edir. Ailəsi ilə yeməyə vərdiş edən fərd daha çox sağlam qida və evdə bişirilən yeməklər istehlak edir. Fərdin davamlı olaraq şəkərli və yaxud hazır qida məhsulları seçmək nisbəti azalır. Beləliklə, daha sağlam qidalanma vərdişləri ilə yanaşı, inkişaf edən qidalanma pozğunluqları, spirt və maddə istifadə nisbətinin də azalmasına səbəb olur.

Ardı Səh. 12

# Ailəvi yeməklər və onların ÖNƏMİ

ARAŞDIRMA

Əvvəli Səh.11

Gündəlik həyatda ekranlara çox vaxt sərf olunur. Bununla belə, ailə üzvlərinin birlikdə keçirdikləri keyfiyyətli vaxtın bu sürətli həyat axınında kifayət qədər məhdud olduğunu nəzərə alsaq, yemək vaxtlarının bütün ailə üzvləri üçün əla fürsət olduğunu başa düşə bilərik.

## Ailə yeməklərinin təhsilə töhfəsi

Ailə yeməklərinin fiziki sağlamlıqla yanaşı zehni faydaları da var. 2004-cü ildə London Universitetinin Qidalanma Təhsili İnstitutunda aparılan tədqiqatın nəticələrinə görə, ailəsi ilə birlikdə yemək yeyən tələbələr imtahanlarda daha yüksək bal toplamağa meyllidirlər. Amerika Milli Maddə İstifadəsi Mərkəzinin 2010-cu il hesabatlarına görə, həftədə 5-7 dəfə ailə naharlarına qatılan tələbələr digər tələbələrlə müqayisədə imtahanlarda tam qiymət alma faizi daha yüksək olub. İllinoys Universitetində aparılan araşdırmaya görə 7-11 yaş arası uşaqlar arasında ailəsi ilə birlikdə yemək yemək vərdişi olanların imtahan müvəffəqiyyətinin digər uşaqlara nisbətən daha yüksək olduğu müəyyən edilib.



Ailə ilə birlikdə yemək vərdişinin 3-6 yaşlı məktəbəqədər uşaqlarda dil inkişafını və nitq bacarıqlarını artırdığı sübut edilmişdir. Bu yaş qrupundakı uşaqlar üçün birlikdə axşam yeməyi yeməyin faydası, ailə üzvləri ilə birlikdə dinləmə və danışma bacarıqlarını inkişaf etdirmək imkanlarını artırmalarıdır. Ailələri ilə birlikdə yeyilən yeməklər uşaqların fərdi inkişafı üçün çox faydalı bir təhsil verir.









## Ailə yeməklərinin ünsiyyətə töhfəsi

Ailə yeməkləri ailə ünsiyyətini və sədaqətini artırır. Ailə yeməkləri uşaqda mümkün yemək pozğunluğunun erkən diaqnozu üçün çox vacibdir. Uşaqlar yemək mühitində problemlərini ailələri ilə daha asan bölüşməyə meyllidirlər. Ailənin yemək zamanı birlikdə keçirdiyi vaxt həm də mədəni ənənələri bölüşmək və ötürmək üçün çox qiymətli bir vaxtdır. Valideynlər bu yemək vaxtı uşaqları ilə daha yaxından tanış olmaq və onları daha yaxından tanımaq imkanı əldə edirlər. Həftədə 5-7 dəfə ailəsi ilə birlikdə yemək yeyən gənclərin digər gənclərlə müqayisədə "valideynlərimlə münasibətimiz mükəmməldir!" demək ehtimalı 3 dəfə çoxdur.

Ailə yeməklərinin bu cür faydalarını nəzərə alsaq, ailə yeməkləri üçün bir araya gəlmək zərurəti daha tez-tez ortaya çıxır.

Amerikada aparılan araşdırmaya görə, 2010-cu ildə gənclərin yalnız 60%-nin həftədə 5 dəfə ailəsi ilə birlikdə yemək yediyi bildirilir. Ailəsi ilə həftədə 5 dəfədən az yemək yeyən gənclərdən bunun səbəbini soruşduqda cavabı "valideynləri məşğuldur" olub.

Ailə yeməklərini təşkil etmək üçün məsləhətlər:

- Hər həftə məqsəd qoyun (məsələn, bu həftə ən azı 2 dəfə ailəvi şam yeməyi);
- Sağlam yeməklər üçün mətbəxinizdə həmişə təzə mövsümi meyvə və tərəvəzlər olduğundan əmin olun;
- Sağlam qida seçimlərini seçin;
- Hazırladığınız yeməyin çox mürəkkəb olmasına ehtiyac yoxdur. Sadə yeməklər çox dadlı ola bilər;
- Əgər həqiqətən də zamanla bağlı ciddi problem varsa, axşam yeməyini kənardan sifariş edib birlikdə yeyib ailənizlə keyfiyyətli vaxt keçirə bilərsiniz;
- Vaxt tapdığınız zaman bir neçə növ yemək hazırlayıb növbəti gün üçün soyuducuda alternativ və hazır yeməklər saxlaya bilərsiniz;
- Hər kəs şam yeməyi zamanı mobil telefonunu söndürməyə çalışmalıdır;
- Yemək zamanı televizor və video oyunlarının söndürülməsini təmin edin;

- Oturma tənzimləməsini elə qurun ki, yemək zamanı ən kiçik uşaqdan tutmuş ən yaşlı ailə üzvünə qədər hamı masa ətrafında olsun;
- Ünsiyyət təşkil edin ki, yemək zamanı hamı bir-biri ilə ən azı 1 mövzu paylaşsın.



## Tövsiyə

Ailə yeməkləri, xüsusən də uşaqlara kömək etmək və dəstəkləmək üçün ailəni bir araya gətirir. İşinizdə və ictimai həyatınızda nə qədər məşğul olsanız da, həftə ərzində daha çox ailəvi şam yeməyi təşkil etməyə çalışmanızı tövsiyə edirik. Beləliklə, uşaqlarınız sağlam qidalar yeyərkən siz onları daha yaxşı tanıyacaqsınız.

Üstəlik, artan ünsiyyətiniz sayəsində onları zərərli vərdişlərdən uzaq durmaq üçün daha yaxşı istiqamətləndirə biləcəyinizi görəcəksiniz. Ailə olaraq paylaşılan yeməklərin sayı artdıqca, paylaşdığınız vaxtın keyfiyyətinin də artdığını görəcəksiniz.

***Ayşən Vəli***

# “Həmin hadisədən 33 il keçib”



*HƏRBİ EKSPERT*

**“1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Azərbaycan hökumətinin və dövlətinin rəsmiləri, o cümlədən jurnalistlər, Rusiya-Qazaxıstan sülhyaratma missiyasının üzvləri olan 22 nəfər şəxs faciəli şəkildə həlak oldu. Həmin hadisədən 33 il keçib”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov deyib.**

O bildirib ki, 1991-ci il Sovetlər birliyi yenicə dağılmışdı, bəzi müstəqillik əldə etmiş ölkələr lazımlı şəkildə öz ordularını qurmamışdılar: "Erməni hərbi birləşmələri dedikdə onlara dəstək olan muzdlu ruslar, qazaxlar, belaruslar, keçmiş SSRİ məkanında olan bir sıra ölkələrin hərbiçiləri nəzərdə tutulurdu, onlar ermənilərə lobbilərin verdiyi pul hesabına çox böyük dəstək olurdular. Biz bunu zamanla həm Xocalı faciəsində, 366-cı Rusiya alayının komandiri, hansı ki, bu gün də Rusiyada yaşayır, "Quşçular", "Başlıbel", digər faciələrdə yaşamışdıq. Həmin faciəli şəkildə qətlə yetirilən 22 nəfərin arasında Azərbaycanın dövlət katibi Tofiq İsmayılov, Azərbaycanın baş prokuroru İsmət Qayıbov, Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycanın baş nazirinin müavini Zülfü Hacıyev, Milli Məclisin iki deputatı Vaqif Cəfərov, Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Qurban Namazəliyev, o vaxtkı Dağlıq Qarabağ Muxtar vilayətinin prokuroru və digərləri var idi. Ən əsası da bizim həmkarlarımız, Azərbaycan televiziyasının əməkdaşları Arif Hüseynzadə və Fəxrəddin Şahbazov da həmin vertolyotda, "1008" hərbi helikopterində həlak oldular. Bu, böyük faciə idi. Bir az da vəziyyəti gərginləşdirmək üçün ermənilər və onlara havadarlıq edən qüvvələr tərəfindən düşünülmüş addım idi.

Böyük terror hadisəsini təkcə Qarabağda deyil, Bakı metrosunda, Bakıdakı avtobus marşrutlarında da gördük. Yaxşı xatırlayıram ki, 106 saylı marşrut avtobusu, o cümlədən rayondan Bakıya gələn avtobus Yevlax rayonu yaxınlığında partladıldı. Bu cür terror hadisələrinin sayı-hesabı yoxdur".

Onun sözlərinə görə, şükürlər olsun ki, artıq 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə düşmənin və ona havadarlıq edən məlum qüvvələrin arzularını ürəklərində qoyduq. Seperatizmin kökünü kəsdik. 2023-cü ilin antiterror tədbirləri ilə bu proses tam yekunlaşdı. Bu gün Azərbaycan işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri həyata keçirir. Azərbaycan insanları Şuşa, Xankəndi, Laçın, Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Cəbrayıl ərazilərinə köçürülür.

Bu gün müstəqillik tariximizin elə bir dönəmidir ki, hələ də bu qələbəni həzm etməyən müəyyən qüvvələr var. Onlar çalışırlar ki, yenə də suyu bulandırsınlar, yenə də bölgədə gərginlik yaratsınlar. Amma 33 il ərzində biz kifayət qədər işlər görmüşük, kifayət qədər müdafiə və təhlükəsizliklə bağlı addımlar atmışıq. 2025-ci ilin müdafiə və təhlükəsizlik xərcləri 2 milyard manata yaxın artırılıb. Bu da səbəbsiz deyil. Ona görə ki, Ermənistanı yaxın və uzaq ölkələr- Rusiya, Fransa, Amerika, Yunanıstan, Cənubi Koreya və digərləri silahlandırır. Qarşıdakı illərdə Ermənistan rəhbərliyində təmsil olunan revanşist qüvvələr çalışacaqlar ki, yenə də silahlı çatışma olsun, onlar da müəyyən məqsədlərinə nail olsunlar. Hesab edirəm ki, bu onlarda alınmayacaq, ona görə ki, Azərbaycanın güclü ordusu var, Azərbaycan ordusu gündən-günə daha da güclənir, yeni silahlar alınır, artıq hərbi hava qüvvələri, İtaliya, Pakistan, qardaş Türkiyədən xeyli texnika və avadanlıqlar əldə olunur. Ona görə də, ümid edirəm ki, ordumuzun müdafiə və döyüş qabiliyyəti bundan sonra da dəfələrlə kəmiyyət baxımından xeyli yaxşılaşacaq və uğurlarımız daha da bol olacaq".

**Söylü Ağazadə**

# Pensiyalar nə qədər artacaq?

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

Dövlət Sosial Müdafiə Fondunun xərclərindən danışarkən qeyd etmək lazımdır ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,52%-ni və ya 7 milyard 408 milyon manatını əhaliyə ödənişlər təşkil edəcək. SİA xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin birgə iclasında deyib.

Komitə sədri qeyd edib ki,Əhaliyə ödənişlər üzrə xərclərin 7 milyard 210 milyon manatı əmək pensiyalarının, 198,4 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür: "Əhaliyə ödənişlərin 2025-ci il üçün nəzərdə tutulmuş proqnozu 2024-cü ilin təsdiqlənmiş proqnozundan 702,4 milyon manat, yaxud 10,5% çoxdur. Əmək pensiyalarının orta aylıq məbləğinin





2024-cü ildə 494 manat təşkil edəcəyi gözlənilir, 2025-cü ildə isə 535 manat olacağı proqnozlaşdırılır.

Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq - 571 manata yüksəlməsi proqnozlaşdırılır. Əvvəlki illərdə olduğu kimi cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əmək haqqı məbləğinə nisbəti müvafiq olaraq 48,8% və 49,5% olmaqla Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında müvafiq konvensiyasına cavab verəcəkdir. Növbəti ildə əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi (50 milyon manat), eləcə də pensiya və müavinətlərin əhaliyə çatdırılması və bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri (37 milyon manat) ümumilikdə 87 milyon manat məbləğində proqnozlaşdırılır.

Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahədə 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, innovativ əsasda təqdim olunmasına imkan yaradıb. 2019-ci ilin may ayında ilk DOST Mərkəzi açılıb. Hazırda ölkə üzrə 7 DOST mərkəzi, o cümlədən Şuşa filialı və Ağalı "Smart DOST" xidmət məntəqəsi fəaliyyət göstərir. Bu mərkəzlərə cari ildə 720 mindən çox vətəndaşımız müraciət etmişdir və məmnunluq indeksi 98.3% təşkil edib".

# "Qonaqpərvərliyiniz insanı evindəymiş kimi hiss etdirir" - Xarici qonaq



“Azərbaycanda olmaq, onun tarixi, mədəniyyəti və təbii gözəllikləri ilə tanış olmaq üçün böyük fürsətdir”. SİA xəbər verir ki, bu sözləri turist Sarah Abdulla Al-Jufairi deyib.

Onun sözlərinə görə, Şəki xan sarayı, Qobustan qaya rəsmləri, Qız Qalası kimi tarixi yerlər diqqətimi çəkdi: "Bakının müasir və ənənəvi arxitekturasının birləşməsi də çox maraqlıdır. Həmçinin Azərbaycan mətbəxini dadmaq da xüsusi bir təcrübədir. Plov, dolma, və qutab kimi yeməklərin dadını çox bəyənirəm. Sizin mədəniyyətiniz və qonaqpərvərliyiniz insanı evdəymiş kimi hiss etdirir. Bunlar mənim fikirlərimdir. Çox sağ olun, təşəkkür edirəm. Mən bu axşam şəhəri daha çox gəzəcəyəm. Dünən gecə gəlmişəm, hələ heç nə görməmişəm. Amma "Dolma" adlı restoranda yemək yeməyi planlaşdırıram. Haqqında yaxşı şeylər eşitmişəm. Sonra isə bulvarda gəzəcəyəm. Ümid edirəm ki, bu axşam bunları görmək üçün kifayət qədər vaxtım olacaq".

**Söylü Ağazadə**

# Gürcüstanda ikihakimiyyətlilik?

## Hakimiyyətin əleyhdarları alternativ parlament yaratmaq qərarına gəliblər



***Gürcüstan Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı bölmələri patrul polisi ilə birlikdə mərkəzi Çavçavadze prospektində Tbilisi Dövlət Universitetinin binası yaxınlığında yerləşən çadır şəhərciyi dağıdıb. Bundan sonra müxalifət başqa küçələrə keçərək təhlükəsizlik qüvvələrini yoracaqlarını və onları "bütün şəhərdə" təqib etmək məcburiyyətində qalacaqlarını elan edib. Bu arada müxalifət koalisiyaları oktyabrın 26-da keçirilən parlament seçkilərində seçilmiş, lakin mandatlarından imtina edən deputatlar arasından alternativ parlament yaratmağı planlaşdırır.***

Daxili İşlər Nazirliyinin 3 minə yaxın polis əməkdaşı və xüsusi təyinatlı dəstəsi çərşənbə axşamı səhər saat 6-da Tbilisi Dövlət Universitetinin (TDU) binası yaxınlığındakı kəsişmədə müxalifətin çadır şəhərciyinə yaxınlaşıb. Bu zaman Dəyişiklik Koalisiyasının fəalları və liderlərinin əksəriyyəti çadırlarda yatırmışlar və ya odda isinirmişlər. Həmin yerdə polis və xüsusi təyinatlılardan daha az piketçi olub. Buna görə də təhlükəsizlik qüvvələrinə nümayişçiləri zorla kəsişmədən çıxarmaq çətin olmayıb. Bu, hakimiyyətin prospektin hərəkət hissəsinin təmizlənməsi zərurəti ilə bağlı xəbərdarlığından sonra baş verib, çünki "mitinq iştirakçılarının sayı o qədər də çox deyil ki, nəqliyyat vasitələrinin hərəkətinin dayandırılmasına ehtiyac var".

Aksiya oktyabrın 26-da keçirilən parlament seçkilərinin nəticələrinə yekun vurulduqdan sonra başlayıb. Həmin gün Gürcüstan parlamentinə 150 deputat seçilib. Rəsmi məlumata görə, 61 mandatı müxalifətin "Dəyişiklik naminə" koalisiyaları Nika Qvaramiya və Nikanor Melia, "Birlik" Mixail Saakaşvili, "Güclü Gürcüstan" Mamuka Xazaradze və "Gürcüstan naminə" koalisiyaları keçmiş baş nazir Giorgi Qaxariya alıb. Milyarder Bidzina İvanişvilinin hakim "Gürcü Arzusu" partiyası 89 yer qazanıb. Bu arada müxalifət hakimiyyəti total saxtakarlıqda ittiham edərək bu nəticələrlə razılaşmayıb.

TDU binasının yaxınlığındakı etirazçılar heç bir müqavimət göstərməyib. Polis və xüsusi təyinatlıların sütunları bir sıra düzülərək





yavaş-yavaş irəliləyib. Onların yolunu bağlamaq üçün yalnız təcrid cəhdləri olub. Eyni zamanda xırda xuliqanlıq ittihamı ilə 16 nəfər saxlanılıb.

Bu arada bir neçə yüz etirazçı başqa prospektə - Melikişviliyə keçib. Müxalifət liderlərindən biri Nika Qvaramiya deyib ki, hakimiyyətin əleyhdarları "bütün şəhərdə" polisi yeni piketlər hazırlayan fəalların arxasınca təqib etməyə məcbur edəcəklər ki, bu da son nəticədə asayiş keşikçilərini "tükənməyə" imkan verəcək.

GÜNÜN SUALI

### Lakin gürcü ekspertlər bu cür taktikaları əbəs hesab edirlər.

Gürcüstan İctimai Əlaqələr İnstitutunun professoru Tornike Şaraşenidze mətbuata müsahibəsində "Hakimiyyət polisə yaxşı maaş verir, onlara mənzillər tikir ki, tez yorulmasınlar" deyib. "Noyabrın 25-də etirazların kulminasiya nöqtəsi"nin hakim "Gürcü Arzusu" partiyası üçün nə dərəcədə təhlükəli ola biləcəyi ilə bağlı sualı cavablandırarkən (bu gün müxalifət parlament binasını mühasirəyə almaq və yeni çağırış parlamentin ilk plenar iclasının keçirilməsinə mane olmaq niyyətindədir), professor Şaraşenidze əmin edib ki, müxalifətin nəhəng binanı mühasirəyə almağa kifayət qədər fəalı yoxdur. Onun fikrincə, "cəmiyyətdə laqeydlik və mübarizənin perspektivinə inamsızlıq hissi var" və ona görə də "Daxili İşlər Nazirliyi parlamentə bütün yanaşmaları asanlıqla piketçilərdən təmizləyəcək".

### Bu arada...

Müxalifət təkcə küçə aksiyaları planlaşdırmır. Paralel hakimiyyət institutlarını da formalaşdırmağa hazırlaşır. "Güclü Gürcüstan" koalisiyasının lideri Mamuka Xazaradze həmfikirlərin "seçki saxtakarlığı nəticəsində" formalaşan parlamentdəki mandatlarından imtina edərək "xalq parlamenti" yaratmağı təklif edib. O, hakim "Gürcü arzusu" partiyasını "Rusiyanın xüsusi əməliyyatı nəticəsində oktyabrın 26-da keçirilmiş seçkiləri oğurlamaqda" ittiham edən prezident Salome Zurabişvilini bu quruma sədr etməyi təklif edib.

Ölkədə "paralel parlament"in formalaşdırılması ideyasını şərh edən tarixçi David Avalişvili xatırladıb ki, Gürcüstan paralel hakimiyyət institutlarının yaradılması ilə bağlı kədərli təcrübəyə malikdir. "1990-cı ildə birinci prezident Zviad Qamsaxurdiyanın tərəfdarları Ali Şuraya seçkilərdə qalib gələrək hakimiyyətə gəldilər. Lakin radikal müxalifət qondarma Milli Konqresi yaradaraq seçkiləri etibarsız elan etdi. İkili hakimiyyət sonda minlərlə qurbanla iki illik vətəndaş müharibəsinə gətirib çıxardı".

Salome Zurabişvili hələ ki, Mamuka Xazaradzenin təklifi ilə bağlı açıqlama verməyib, lakin hadisələrin inkişafı ilə bağlı öz versiyasını təklif edib: o, parlamentin ilk iclasını çağırmayacaq, bunu konstitusiyaya görə etməlidir və bu məsələyə baxmağa davam etməyi təklif edir. "Yeni, ədalətli seçkilər keçirilənə qədər belə davam edəcək", - prezident xüsusi brifinqdə vurğulayıb. Bununla belə, "Gürcü arzusu" bu variantın qəti şəkildə istisna edildiyini açıq şəkildə bildirir.

**VƏLİ**

# Pavel Klaçkov:
# "İlham Əliyev COP29 Bakı konfransında Qərbin iç üzünü açdı"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*






**Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filial direktoru Pavel Klaçkov "Moskva-Baku" portalına müsahibəsində BMT-nin Bakıda keçirilən iqlim konfransı ilə bağlı bir sıra Qərb ölkələrinin ikili yanaşmalarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Pavel Vladimiroviç, Fransanın ekologiya naziri Bakıda keçirilən BMT-nin COP29 iqlim konfransına səfərini ləğv etdi və Avropa diplomatiyasının rəhbəri Jozef Borrell İlham Əliyevin konfransda Fransa və Hollandiyanın özlərinin xarici ərazilərində apardıqları siyasət, eləcə də bu dövlətlərin neokolonial siyasətinin ümumilikdə iqlimə mənfi təsir göstərməsi bağlı çıxışından sonra Azərbaycanı tənqid etdi. Eyni zamanda, Azərbaycan Prezidenti Borrelin Aİ-ni "Cənnət bağı", dünyanın qalan hissəsini isə "cəngəllik" adlandıran bəyanatını xatırladıb...***

- Mən Azərbaycan Prezidentinin Bakıda BMT-nin iqlim konfransının inkişaf etməkdə olan kiçik ada dövlətlərinə həsr olunmuş sessiyasındakı çıxışını çox diqqətlə öyrəndim. Və deyə bilərəm ki, bu, çox dəqiq, cəsarətli, açıq çıxışdır.

İlham Əliyevin bəzi Qərb dövlətlərinin təhrik etdiyi problemlərdən (və məlum olduğu kimi, uzun müddətdir ki, dünyada yalnız bir neçə dövlətin Qərbi tənqid etməyə gücü çatırdı) açıq şəkildə danışması Qərbin yanaşmalarının ədalətsizliyini açıq şəkildə ortaya qoyur. Azərbaycan təkcə regional deyil, qlobal problemlərin həllində iştirak edir, bu, Azərbaycan Prezidentinin siyasi ağır çəkidə olduğunu, bu gün artıq təkcə Cənubi Qafqaz və Xəzər regionunda deyil, beynəlxalq aləmdə siyasi rol oynadığını bir daha təsdiqləyir.

Azərbaycan nümayiş etdirdi ki, iqlim dayanıqlığı artıq Qərbin əlində ola bilməz. Dəhşətli müstəmləkəçilik siyasətinin əsasları da aradan qaldırılmalıdır. Azərbaycan Prezidenti iqlim dəyişikliyi məsələsində Fransa və Hollandiyanın mənfi rolunu qeyd edib.

İqlim problemi obyektiv olaraq bütün dünya üçün mövcuddur. Və Parisin etdiyi kimi iqlim gündəmi siyasi məqsədlər üçün istifadə edilə bilməz. Həqiqətən də, Makron özü Fransanı iqlim problemlərinin həllini müdafiə edən ölkə kimi təbliğ edir. Lakin Fransa və bəzi Aİ qurumları iqlim gündəmindən özlərinə sərfəli şəkildə istifadə etməyə və bundan öz siyasi problemlərini həll etmək üçün istifadə etməyə çalışırlar.

İqlim konfransının Bakıda keçirilməsinin qarşısını almaq üçün bir sıra Qərb dövlətlərinin, Qərb institutlarının, o cümlədən Avropa Parlamentinin apardığı anti-Azərbaycan kampaniyasını xatırlayırıq. Hansı arqumentlər verilmədi. Qərbdə isə ən sevimli mövzu insan haqlarının pozulması iddiasıdır.

Amma Fransa öz problemlərində bataqlığa girdiyi üçün Azərbaycana əmr verə biləcək ölkə deyil. Yay Olimpiya Oyunları öncəsi Parisdə Sena çayının "təmizlənməsi" ilə bağlı qalmaqallı vəziyyəti xatırlayaq. Orada üzməyin mümkün olduğunu sübut etmək üçün fransız nazir özünü çirkli suya atdı. Lakin Olimpiada zamanı çay hələ də çirkli olduğu üçün üzgüçülük yarışları ləğv edildi. Əgər Avropada, Borrelin dediyi kimi, "Cənnət bağı"nda, Azərbaycanda guya insan haqlarının pozulması mövzusundan sui-istifadə etmək istəyirlərsə, o zaman həmin Avropa ilk növbədə güzgüdə özünə baxmalıdır. Məsələn, Fransada etiraz aksiyalarında əhalini necə sıxışdırırlar. Və bəzən Yeni Kaledoniyada bu yaxınlarda olduğu kimi öldürürlər.

Bu və ya digər istiqamətdə kiməsə nəsihət vermək, nəyisə öyrətmək üçün bir ölkənin, onun rəhbərinin bunun üçün hansısa mənəvi əsası olmalıdır, bu məsələlərdə bir növ ideal olmalıdır. Amma sən özün çıxardığın çirkabın içində boynuna qədər oturanda, dünya sənin davranışına qəzəblənəndə, öz çirkab çəlləyindən kiməsə nə etməli olduğunu necə deyə bilərsən? Əvvəlcə bunu özünüz başa düşməlisiniz. Amma başqalarına münasibətdə özləri üçün norma hesab etdikləri bu əbədi Qərb əxlaqi təlimləri artıq keçib gedir. Bütün bunlar çoxdan gülünc hal alıb. Yaxşı, sən orada nəsə hürürsən. Lakin bu hürmə artıq təsirli deyil. Qərb bütün nüfuzunu itirib. İlham Əliyev isə bunu bir daha nümayiş etdirdi.

Əliyev nümayiş etdirdi ki, iqlim gündəmi dar mənada eqoist siyasi məqsədlərin, o cümlədən Qərbin müstəmləkəçilik maraqlarının girovuna çevrilməməlidir.

İlham Əliyev Qərbin Aİ-nin "Cənnət bağı", dünyanın qalan hissəsinin isə "cəngəllik" olması barədə bəyanatların cəfəngiyyat olduğunu nümayiş etdirdi. Və əgər belədirsə, Qərbi bu "cəngəlliyə" burnunu soxmamağa çağırdı. Və bu "Eden bağında" nə qəddarlıqların baş verdiyini göstərdi.

İnanıram ki, Fransa və Hollandiyanın xarici ərazilərində yaşayan sakinlər onların problemlərini dünyanın diqqət mərkəzinə çəkən Azərbaycana himayəsinə görə hədsiz minnətdardırlar.

Bundan əlavə, bildiyiniz kimi, COP29 iqlim konfransının sədri kimi Azərbaycanın məqsədlərindən biri qlobal Şimal və qlobal Cənub arasında körpülər qurmaqdır. Biz gördük ki, bəzi Qərb qüvvələrinin Bakının COP29 tədbirini pozmaq cəhdlərinə baxmayaraq, Fransanın psixozuna baxmayaraq, 196 ölkənin nümayəndəsi, 80-ə yaxın prezident, baş nazir, baş nazirin müavinləri Azərbaycana gəlib. Və hamı müzakirə edir, iqlim problemlərinin həlli üzərində işləyir və hansısa ortaq məxrəcə gəlməyə çalışır.

Müasir dövrdə kifayət qədər çətin bir iş üzrə Azərbaycanın təşəbbüsü- qlobal Şimal ölkələri ilə qlobal Cənub ölkələri arasında iqlim gündəmi vasitəsilə körpülər qurmaq- son dərəcə vacib və nəcib vəzifədir, dünyanın ən çətin çağırışlarını dərk edən məsuliyyətli dövlətin təşəbbüsüdür. Burada əsas məsələ dinc yanaşı yaşamağa, mövcud məsələlərin bərabər şərtlərlə birgə həllinə çağırışdır. Dünyada hər şey yolunda gedərkən, hərbi gərginlik artdıqda, bu əlaqələri pozmaq meyli fonunda münaqişələr kəskinləşəndə, dünyanın parçalandığı, qlobal fəlakətin astanasında olduğu hissi yarananda , Azərbaycan deyir ki, ümumi vəzifələr var, münaqişə edən tərəflər arasında körpülər lazımdır ki, dövlətlər arasında münasibətlərin strukturu qorunmalıdır. Və biz dinc dialoqun keşiyində durmalıyıq. Azərbaycanın təşəbbüsü kimi təşəbbüslərin olması isə dünyanın məhv olmasına imkan verməyə bilər.

Qətiyyətlə deməк olar ki, Azərbaycanın son illərdə gördüyü hər şey səmərəli nəticələrə gətirib çıxarır. COP29-un sədri kimi Azərbaycanın digər təşəbbüsü iqlim dəyişikliyi ilə mübarizədə kiçik inkişaf etməkdə olan ölkələri maliyyələşdirməyə kömək etmək üçün Fondun yaradılmasıdır və Bakı artıq 10 milyon ABŞ dolları məbləğində töhfə verib. Bu nəcib hərəkətdir. Azərbaycan sadəcə gözəl danışmır, sözləri boş yerə sərf etmir, həqiqətən hərəkət edir, həqiqətən kömək edir, maliyyələşdirir. Onların çiyninə vurub, ey adalılar, siz nə qədər yaxşısınız deməklə deyil- yalnız real şeylər kömək edir. Bu isə böyük hörmətə səbəb olur.

Xatırlayırıq ki, əvvəllər Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan 80-ə yaxın ölkəyə maliyyə və humanitar yardım göstərib. Bu, bir daha sübut edir ki, İlham Əliyev bu gün qlobal səviyyədə mötəbər liderdir.

***- Rusiya İqlim dəyişikliyi ilə mübarizədə inkişaf etməkdə olan ölkələrin maliyyələşdirilməsi zərurətində COP29-un sədri kimi Azərbaycanın iqlim dəyişikliyinə yanaşmalarını bölüşür.***

- Doğrudan da, bu məsələdə Rusiya və Azərbaycanın yanaşmaları yaxındır. Bakı konfransında Mixail Mişustin iştirak edib və COP29-da Bakıda geniş yüksək səviyyəli nümayəndə heyəti işləyir. Rusiya COP29-un keçirilməsində Azərbaycana dəstək verib və konfransın hazırlanmasına kömək edib. Vladimir Putin Azərbaycan prezidentinə təbrik sözlərini çatdırıb.

İstər bu sahədə əməkdaşlıq, istərsə də ümumi yanaşma və çağırışlara baxış da bizim strateji müttəfiqlik münasibətlərimizin eyni istiqamətə baxdığımızı bir daha nümayiş etdirir. Biz birlikdə, yan-yana qlobal problemlərin həllində iştirak edirik. Bizim dialoq nümunəmiz isə bu və ya digər dərəcədə başqaları üçün nümunədir.

***- Bakıdakı konfransa Ermənistan nümayəndələri dəvət olunsa da, gəlmədilər...***

- Ermənistan hakimiyyəti belə bir qərar qəbul edəndə onların nə düşündüyünü söyləmək çətindir. Amma məncə, xarici siyasət perspektivləri baxımından Bakıya gəlməkdən imtina yanlış qərar idi. Səfər sülh yolunda Ermənistan-Azərbaycan dialoqunun daha səmərəli qurulmasına töhfə verəcəkdi. Dialoqdan imtina etmək həmişə pisdir. Şübhə yoxdur ki, Azərbaycan Ermənistan nümayəndələrinin təhlükəsizliyini tam təmin edəcəkdi.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
22 noyabr
2024-cü il

# 7 yaşı var, İT şirkətindən iş təklif aldı



Rusiyada proqram təminatı şirkətlərindən biri Sankt-Peterburqdan olan yeddi yaşlı kodlaşdırma vunderkindi Sergeyi işə dəvət edib. Bu barədə BBC məlumat yayıb. Şirkət uşağa korporativ təlim şöbəsinə rəhbərlik etməyi təklif edib. Rusiya qanunlarına görə isə Sergey 14 yaşına qədər pullu vəzifədə çalışa bilməz. Bununla belə, qurumun baş direktoru artıq Sergeyin valideynləri ilə əməkdaşlıq üçün ideyalar axtarmağa başlayıb.

Qeyd edək ki, vunderkind proqramçı iki ildir onlayn təhsil proqramlaşdırma videoları dərc edir. "Python" və "Unity" dillərini, həmçinin neyron şəbəkələri öyrənməkdə maraqlı olan 3500-dən çox insan onun yutub kanalına abunə olub.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Titanik"in aktyorları 27 il sonra bir arada...



"Titanik" filminin ulduz aktyorları Leonardo DiKaprio və Keyt Uinslet uzun müddət sonra bir araya gəliblər. Ulduz aktyorlar "Lee" filminin qalasında görüşüblər. DiKaprio və Uinslet birgə kameralara poz veriblər. Tədbir çərçivəsində həmkarını səhnəyə dəvət edən aktyor onu dodağından öpüb və qucaqlayaraq Uinsletə dəstək olub.

Qeyd edək ki, "Titanik" 27 il əvvəl - 1997-ci ildə izləyicilərin ixtiyarına verilib. Aktyorlar "Cek" və "Rouz" obrazlarını canlandırıblar.

# Xaçmazda 4 avtomobil toqquşub: 2 yaşlı uşaq ölüb

Gəndob-Yalama avtomobil yolunun Xaçmazdan keçən hissəsində ağır yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC-ın



bölgə müxbiri xəbər verir ki, Nərəcan kəndi ərazisində baş verən hadisə zamanı 2 minik, 1 yük avtomobili və Xaçmaz-Xudat marşurutu ilə hərəkət edən sərnişin avtobusu toqquşub. Qəza nəticədə 2 yaşlı uşaq ölüb, 3 nəfər yaralanıb. Sərnişin avtobusunda olanlar xəsarət almayıb.

Yaralılar Xaçmaz Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub. Faktla bağlı araşdırma aparılır.

# Bu futbolçu üçün 120 milyon avro transfer qiyməti qoyulub

***"Bayer"in yarımmüdafiəçisi Florian Virtz karyerasını "Mançester Siti"də davam etdirmək istəyir. Bu barədə Britaniya mətbuatı məlumat yayıb. Medianın yazdığına görə, Leverkuzen təmsilçisi transfer üçün "şəhərlilər"dən 120 milyon avro istəyəcək. Alman klubu futbolçunun başqa kluba keçidinə yalnız bu məbləğdə razılıq verəcək.***



21 yaşlı alman futbolçu "Mançester Siti"də müqaviləsi başa çatmaq üzrə olan Kevin De Bruyneni əvəzləmək istəyir. Virtzə daha əvvəl "Real" və "Bavariya"dan da təklif gəlib. Lakin o, bu komandalarda start heyətdə oynamaq imkanını görmədiyi üçün "Mançester Siti"yə keçməyə üstünlük verib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**